# Fevralın ilk həftəsinə kimi məsələ aydınlaşacaq

Əgər kimsə təhsil və səhiyyə sektorunda çalışırsa və maaşı 300 manat idisə, mütləq artırılmalıdır



**"Sosial şəbəkədə ən çox verilən suallar müəllimlərin əməkhaqlarının nə zaman artması ilə bağlıdır".**

Bu barədə millət vəkili Vüqar Bayramov deyib. Deputat xatırladıb ki, Səhiyyə Nazirliyinin tabeçiliyindəki müəssisələrin maaşları Vahid Tarif Cədvəli (VTC) ilə tənzimləndiyi üçün onların əməkhaqları yanvarın 1-dən etibarən artırılıb. Bununla bağlı Nazirlər Kabineti tərəfindən qərar da qəbul olunub...

(səh.4)



## Azərbaycan Ermənistan hərbçisinin meyitinin qalıqlarını qarşı tərəfə təhvil verib

**Azərbaycan Ermənistan hərbçisinin meyitinin qalıqlarını qarşı tərəfə təhvil verib.**

APA xəbər verir ki, bu barədə Ermənistan Müdafiə Nazirliyinin mətbuat katibi Aram Torosyan bildirib.

*Qeyd olunub ki, həmin hərbçi ötən ilin sentyabrında baş verən toqquşmalarda ölüb.*


№ 16 (5777), 2023-cü il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 28 yanvar 2023-cü il (şənbə)




# Azərbaycanda sənədsiz evlərlə bağlı qanun layihəsi hazırlanacaq

**Azərbaycanda qanunsuz tikilmiş 450 min sənədsiz evlə bağlı qanun layihəsinin və digər normativ sənədlərin hazırlanıb aidiyyəti üzrə təqdim edilməsi nəzərdə tutulub.**

"Report" xəbər verir ki, bunu İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestrinin İdarə Heyətinin sədr müavini Elşad Məmmədov bildirib.

"İndiyə qədər qeydiyyatdan keçməmiş daşınmaz əmlakların "bir pəncərə" prinsipi ilə tam elektron şəkildə qeydiyyata alınması üçün lazımi sistemin yaradılmasını , prosesin elektron portal vasitəsilə reallaşdırılmasını nəzərdə tuturuq", - deyə E.Məmmədov qeyd edib.



## "Türkiyə Azərbaycanın yanındadır"

Ərdoğan Azərbaycanın İrandakı səfirliyinə terror hücumunu qınayıb

**"Azərbaycanın Tehrandakı səfirliyində bir mühafizə əməkdaşının şəhid olduğu hücumu şiddətlə qınayıram".**

"Report" xəbər verir ki, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tviterdə yazıb.

"Azərbaycanlı qardaşlarımıza başsağlığı verir, yaralılara şəfa diləyirəm. Türkiyə can dostu və qardaşı Azərbaycanın yanındadır", - dövlət başçısı bildirib.

## Azərbaycan və İran XİN başçıları telefonla danışıb

Ceyhun Bayramov İrandakı səfirliyimizə olan terror hücumunu qətiyyətlə pisləyib və şiddətlə qınayıb





**Səfirliyə qarşı terror hücumu ilə əlaqədar Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə İran İslam Respublikasının xarici işlər naziri Hüseyn Əmir Abdullahian arasında telefon danışığı baş tutub.**

Bu barədə "Şərq"ə Azərbaycan Xarici İşlər Nazirliyindən məlumat verilib.

Bildirilib ki, C.Bayramov 1 nəfər əməkdaşın şəhid olduğu və 2 nəfər əməkdaşın yaralandığı İrandakı səfirliyimizə olan terror hücumunu qətiyyətlə pisləyib və şiddətlə qınayıb.

"Diplomatik münasibətlər haqqında Vyana Konvensiyası"ndan irəli gələrək İran tərəfinin Səfirliyin binasını hər cür hücumlardan qorunmasının və onun əməkdaşlarının təhlükəsizliyinin təmin edilməsinin İran tərəfinin vəzifəsi olduğunu qarşı tərəfə bir daha xatırlanıb.

(səh.2)

# Tehranda səfirliyimizə qarşı terror aktı

İranın terrorçu dövlət olduğunu dünya bir daha gördü








**Dünən səhər saatlarında Azərbaycanın Tehrandakı səfirliyinə silahlı basqın edilib. Hücum edən şəxs "Kalaşnikov" markalı avtomat silahla mühafizə postunu yararaq, mühafizə xidmətinin rəisi - Orxan Əsgərovu şəhid edib. Hücum dəf edilərkən Azərbaycan hüquq-mühafizə orqanlarının səfirliyin mühafizəsinə cavabdeh olan iki əməkdaşı isə yaralanıb. Onların vəziyyəti qənaətbəxşdir. Hadisədən sonra xain hücumla bağlı araşdırma başlanılıb. Lakin İran tərəfi terror hadisəsini məişət zəminində baş vermiş hadisə müstəvisinə endirərək gülünc açıqlama verib. Qeyd olunub ki, Azərbaycan səfirliyinə hücum edən şəxs şəxsi motivləri əsas gətirib. Tehranın polis rəisi Hüseyn deyib ki, o şəxs dindirilərkən ailə problemlərinə görə hücum etdiyini iddia edib. Lakin teraktı əks etdirən videogörüntülərin yayılmasından sonra polis rəisinin yalanları ifşa olunub. Hadisədən sonra Azərbaycanın İrandakı səfirliyinin əməkdaşları təxliyə olunub.**

(səh.3)

# Yeni su mənbələri çoxdan tapılmalı idi

Kür çayı həm Ermənistan, həm də Gürcüstan tərəfindən zərərli qatqılarla çirkləndirilir



**Milli Məclisdə içməli su problemi, suyun keyfiyyəti və onun təmizlənməsi texnologiyaları barədə müzakirələr təşkil ediləcək.**

Bu məsələ Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin yaz sessiyası üzrə İş planına daxil edilib.

İş planına həmçinin suvarma mövsümünə hazırlıq işlərinə dair müzakirələr daxil edilib. Bundan əlavə, komitə ekologiya sahəsində ixtisaslaşmış QHT ilə görüşlərin və müzakirələrin aparılmasını, Cop 27-nin nəticələri və Qlobal iqlim dəyişikliyinin Azərbaycana təsiri ilə bağlı müzakirələrin keçirilməsini nəzərdə tutur.

(səh.2)



## Manat hazırda ən stabil valyutadır

Ona görə dollara çox böyük həcmdə ehtiyac yoxdur

**Mərkəzi Bankın təşkil etdiyi son iki valyuta hərraclarında banklar tərəfindən heç bir sifariş təqdim edilməyib. Bu o deməkdir ki, hərraca çıxarılan dolları heç bir bank almaqda maraqlı olmayıb.**

Ötən il isə Mərkəzi Bank əksər hərraclarda təklifin tələbi üstələdiyini, eyni zamanda bankların nağd valyuta alışının satışı üstələdiyini bildirmişdi. Ekspertlərin ehtimalına görə, Rusiyadan Azərbaycana pul köçürmələri və əhalinin satışları artdığından banklar əhalidən kifayət qədər məbləğdə xarici valyuta aldıqları üçün hərracda valyuta sifariş etməyə maraq göstərmirlər.

(səh.3)

## Masallıda faciə: 1 ailənin 7 üzvü dəm qazından zəhərləndi



**Masallıda bir ailənin yeddi üzvü dəm qazından zəhərlənib.**

Medicina.az xəbər verir ki, rayonun Köhnə Alvadı sakinləri - 52 yaşlı Gülbahar Şahmarova, onun oğlu 30 yaşlı Elvin, qızı 18 yaşlı Günay, bacısı qızı 17 yaşlı Cəlalə və nəvələri: səkkiz yaşlı Rəsul, altı yaşlı Nuray, dörd yaşlı Fatimə yaşadıqları evdə dəm qazından zəhərləniblər.

Onlar xəstəxanaya yerləşdiriliblər. Vəziyyətləri kafidir.

Hadisə ilə bağlı araşdırılma aparılır

## 3 nəfər vəfat edib

24 yeni yoluxma faktı qeydə alınıb

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 24 yeni yoluxma faktı qeydə alınıb, 37 nəfər müalicə olunaraq sağalıb.**




Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən 3 nəfər vəfat edib.

Azərbaycanda indiyədək ümumilikdə 827 847 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 817 541 nəfər müalicə olunaraq sağalıb, 10 080 nəfər vəfat edib, aktiv xəstə sayı 226 nəfərdir.

Ölkədə son sutka ərzində 1 413, hazırkı dövrədək isə 7 481 325 test aparılıb.



## "Kəşfiyyat təşkilatları hər şeyi müəyyən edir"

Türk general "Şərq"ə Azərbaycan səfirliyinə hücumdan danışdı

(səh.4)



## İmtahan sessiyasının ləğvi yaxşı ideyadır

Lakin məsələ onun nəylə əvəz ediləcəyidir

(səh.7)

# Azərbaycan və İran XİN başçıları telefonla danışıb

## Ceyhun Bayramov İrandakı səfirliyimizə olan terror hücumunu qətiyyətlə pisləyib və şiddətlə qınayıb

**Səfirliyə qarşı terror hücumu ilə əlaqədar Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə İran İslam Respublikasının xarici işlər naziri Hüseyn Əmir Abdullahian arasında telefon danışığı baş tutub.**




Bu barədə "Şərq"ə Azərbaycan Xarici İşlər Nazirliyindən məlumat verilib.

Bildirilib ki, C.Bayramov 1 nəfər əməkdaşın şəhid olduğu və 2 nəfər əməkdaşın yaralandığı İrandakı səfirliyimizə olan terror hücumunu qətiyyətlə pisləyib və şiddətlə qınayıb.

"Diplomatik münasibətlər haqqında Vyana Konvensiyası"ndan irəli gələrək İran tərəfinin Səfirliyin binasını hər cür hücumlardan qorunmasının və onun əməkdaşlarının təhlükəsizliyinin təmin edilməsinin İran tərəfinin vəzifəsi olduğunu qarşı tərəfə bir daha xatırlanıb.

İranın səlahiyyətli qurumları tərəfindən terror aktını törədən şəxsin tezliklə məsuliyyətə cəlb olunması, terror aktının hərtərəfli araşdırılması, cinayətin təşkili və törədilməsində əli olan digər iştirakçıların müəyyənləşdirilməsi və cəzalandırılması qarşı tərəfdən tələb olunub.

İran xarici işlər naziri Abdullahian həlak olan şəxsin ailəsinə, Azərbaycan rəhbərliyinə və xalqına başsağlığı diləklərini çatdırıb. İranın aidiyyəti səlahiyyətli qurumları tərəfindən dərhal hadisəyə reaksiya verildiyini, hazırda isə aidiyyəti hüquq-mühafizə orqanları tərəfindən məsələnin araşdırıldığı, səfirliyimizin və heyətinin təhlükəsizliyinin ən yüksək səviyyəyə qaldırıldığını diqqətə çatdırıb.

Saxlanılan şəxsə qarşı silah daşımaq və diplomatın qətlə yetirilməsi üzrə cinayət işi açıldığını, onun yüksək cəzaya məruz qalacağını bildirib. Səfirliyin yerləşdiyi ərazidən məsul olan İranın diplomatik polis qurumunun fəaliyyətinin araşdırıldığı qeyd edilib.

Bu hadisə nəticəsində iki ölkə arasında münasibətlərin daha da gərginləşməyəcəyinə İran naziri tərəfindən ümid ifadə olunub.

# Misir Prezidentinin Azərbaycana səfəri çox önəmli hadisədir

## Əhəd Məmmədli: "Çünki ərəb dünyasında da erməni diasporu, lobbisi güclüdür"

**"Ərəb dünyasının iki açar ölkəsi var. Onlardan biri də Misirdir. Misir islamdan əvvəl də, sonra da qədim tarixə malik, dövlətçilik ənənəsi olan bir ölkədir".**



*Bu sözləri "Şərq"ə siyasi şərhçi Əhəd Məmmədli Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah Əs-Sisinin Azərbaycana səfərini şərh edərkən deyib. O bildirib ki, Misir Prezidentinin Azərbaycana səfəri hər iki ölkə üçün əhəmiyyətlidir:* "Ələlxüsus da, İkinci Qarabağ müharibəsində qazandığımız qalibiyyətdən sonra ölkəmizin nüfuzu dünyada artıb. Bir çox dünya dövlətləri üçün daha maraqlı, vacib bir ölkəyə çevrilib. Sabiq Prezident Məhəmməd Mursinin hakimiyyəti bitdikdən sonra yerinə Əbdülfəttah Əs-Sisi lider təyin olundu.

Daha sonra Türkiyə-Misir münasibətləri zəifləyən xətt üzrə inkişaf etdi. Azərbaycan Türkiyə-İsrail münasibətlərinin normallaşmasında vasitəçi kimi çıxış edib. İndi də Türkiyə-Misir əlaqələrinin "isinməsində" vasitəçilik missiyasını yerinə yetirə bilər.

İstənilən halda bu səfəri əhəmiyyətli saymaq olar. Çünki ərəb dünyasında da erməni diasporu, lobbisi güclüdür. Hansı ərəb ölkəsində erməni lobbisi fəallıq göstərirsə, Türkiyə ilə əlaqələri yaxşı vəziyyətdə deyilsə, orada münasibətlərin düzəlməsi, möhkəmlənməsinə çalışmaq, təbii ki, Azərbaycanın da maraqlarına cavab verir. Bu baxımdan səfər hər iki ölkə üçün əhəmiyyətli və nəticəli olacaq".

*Qeyd edək ki, Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah Əs-Sisi yanvarın 27-də Azərbaycan Respublikasına səfərə gəlib.*

**Sücayət Mehti**

# Yeni su mənbələri çoxdan tapılmalı idi

Kür çayı həm Ermənistan, həm də Gürcüstan tərəfindən zərərli qatqılarla çirkləndirilir



**Milli Məclisdə içməli su problemi, suyun keyfiyyəti və onun təmizlənməsi texnologiyaları barədə müzakirələr təşkil ediləcək. Bu məsələ Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin yaz sessiyası üzrə İş planına daxil edilib.**

İş planına həmçinin suvarma mövsümünə hazırlıq işlərinə dair müzakirələr daxil edilib. Bundan əlavə, komitə ekologiya sahəsində ixtisaslaşmış QHT ilə görüşlərin və müzakirələrin aparılmasını, Cop 27-nin nəticələri və Qlobal iqlim dəyişikliyinin Azərbaycana təsiri ilə bağlı müzakirələrin keçirilməsini nəzərdə tutur.

**Neftçilərin Hüquqlarını Müdafiə Təşkilatının sədri Mirvari Qəhrəmanlı "Şərq"ə açıqlamasında bildirdi ki, Azərbaycan Dövlət Neft Fondunun büdcəsi hesabına Oğuzdan Bakıya su kəməri çəkilib. Kəmərin çəkilişi 450 mln. manata nəzərdə tutulsa da, sonra da 300 milyon. manat əlavə vəsait ayrıldı və kəmər 920 milyon manata başa gəldi:**

Mirvari Qəhrəmanlı: "Bununla bağlı Parlamentdə müzakirələr planlaşdırılırsa, mütəxəssisləri cəlb etsinlər"

- Kəmər Bakı və onun rayonlarını 24 saat içməli su ilə təmin etməli idi. Lakin verilən vədlər yerinə yetirilmədi. Oğuzdan gələn suyun hamısı əhaliyə verilmədi. Səlahiyyətli şəxslər dəfələrlə bəyan ediblər ki, Oğuzdan gətirilən suyun tərkibi Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən müəyyənləşdirilən standartlara tam uyğundur. Amma ölkədə istifadə olunan içməli su təmiz deyil. Ev şəraitində də təmizlənmədəm istifadəsi insan orqanizmi üçün ziyanlıdır. İçməli su kimi əhali əsasən Kür çayından verilən sudan istifadə edir. Kür çayı həm Ermənistan, həm də Gürcüstan tərəfindən zərərli qatqılarla çirkləndirilir. Azərbaycan hökuməti hələ uzun illər öncə əhalinin sağlamlığının qorunması məqsədilə proqram qəbul etməli, yeni su mənbələri tapmalı, ekoloji çirklənmənin qarşısını almalı idi. Çaylarımıza Ermənistan tərəfindən radioaktiv maddələr axıdılır.

Suyun keyfiyyəti necə normal ola bilər? Bununla bağlı parlament müzakirələr aparılmasını planlaşdırırsa, mütəxəssisləri cəlb etsinlər, suyun keyfiyyətinin yaxşılaşdırılması üçün hansı əməli işlər görülməli olduğunu açıqlasınlar.

**Məlahət Rzayeva**

# Paşinyanın mesajının detalı aydındır

Baş nazir Qarabağdakı ermənilərə demək istəyir ki, imkan düşən kimi qaçın

**Ermənistanın Baş naziri Nikol Paşinyan hökumətin iclasında Azərbaycanı erməniləri "kütləvi deportasiya" etməkdə günahlandırıb. Baş nazirin iddiasına görə, əgər indiyə qədər beynəlxalq ictimaiyyət Qarabağda ermənilərin "etnik təmizlənməsi" ilə bağlı narahatlıqlara şübhə ilə yanaşırdısa, indi bu təsəvvür beynəlxalq aləmdə yavaş-yavaş, lakin davamlı şəkildə güclənir:**



"Bakının planı belədir, Qarabağdakı iqtisadi və psixoloji təzyiqi müəyyən kulminasiya nöqtəsinə çatdırmaq. Sonra bir neçə gün dəhlizi açmaq, ermənilərin kütləvi şəkildə evlərini tərk etmələrini gözləmək. Ardınca dəhlizi yenidən bağlayıb, sonra onu bir neçə günlük açıb sonuncu erməni tərk edənə qədər belə davam etmək...".

**Siyasi şərhçi Asif Nərimanlı "Şərq"ə bildirib ki, erməni baş nazir bu ifadələri Bakını ittiham etmək və beynəlxalq diqqəti bölgəyə çəkmək üçün səsləndirib. Analitikə görə, burada səslənən iddianın əks-effekt perspektivi də görünür:** "Nikolun bu sözlərindən sonra indiyə qədər İrəvanı qarant kimi görən Qarabağdakı ermənilər arasında bölgəni tərk etmək istəkləri arta bilər. Aksiyanın başlanmasından sonra "yol açılan kimi çıxmaq" meyilləri artıb. Paşinyanın sözlərindən də ermənilər üçün belə bir nəticə çıxır ki, yol açılsa belə, hər an yenidən bağlana bilər. Bu baxımdan, köçmək istəyənlər yolun ilk açılacağı vaxtda bölgəni tərk etməyə çalışacaqlar. Bu kontekstdə Paşinyanın "Bakının planı" dediyi iddiası ermənilərə "imkan yaranan kimi qaçın" mesajı kimi də səslənir".

**İsmayıl**

# Prezident Azərbaycan səfirliyinə hücumla bağlı paylaşım edib

## İlham Əliyev: "Bu terror aktının tezliklə araşdırılmasını və terrorçuların tezliklə cəzalandırılmasını tələb edirik"

**Bu terror aktının tezliklə araşdırılmasını və terrorçuların tezliklə cəzalandırılmasını tələb edirik.**




Bu barədə Prezident İlham Əliyevin Azərbaycanın İrandakı səfirliyinə hücumla bağlı paylaşımda qeyd olunub.

"Bu gün Tehrandakı səfirliyimzə qarşı törədilmiş terror aktını şiddətlə qınayıram. Səfirliyin və səfirlik əməkdaşlarının mühafizəsini təmin edərkən həlak olan baş leytenant Əsgərov Orxan Rizvan oğlunun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirəm.

Bu terror aktının tezliklə araşdırılmasını və terrorçuların tezliklə cəzalandırılmasını tələb edirik. Diplomatik nümayəndəliklərə qarşı terror hücumu qəbuledilməzdir!", - deyə paylaşımda qeyd olunub.

# Prezidentin köməkçisi Hikmət Hacıyev İsrail və Britaniya səfirləri ilə görüşüb





**İsrailin Azərbaycandakı səfiri Corc Dik Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevlə görüşüb.**

Bu barədə İsrail diplomatı "Twitter"də bildirib.

O, bu gün Hikmət Hacıyevlə vacib görüş keçirdiyini qeyd edib.

"Azərbaycanın Tehrandakı səfirliyinə qarşı törədilmiş terror aktı ilə bağlı başsağlığı verdim və Azərbaycan xalqı ilə həmrəy olduğumuzu bir daha bəyan etdim", - səfir bildirib.

Böyük Britaniyanın Azərbaycandakı səfiri Fergus Auld da Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevlə görüşüb.

Bu barədə britaniyalı diplomat "Twitter"də bildirib.

"Prezidentin köməkçisi Hikmət Hacıyevlə mühüm görüşüm oldu. Azərbaycanın İrandakı səfirliyinin mühafizə xidmətinin rəisinin qətlə yetirilməsi ilə əlaqədar Britaniya hökumətinin başsağlığını çatdırdım. Biz mühüm regional təhlükəsizlik və humanitar məsələləri də müzakirə etdik", - səfir vurğulayıb.

# Ravvinin addımı Azərbaycan xalqı ilə əsl həmrəylik nümunəsidir

## "Biz cənab Avixal Apelə ölkəmizə verdiyi səmimi və obyektiv dəstəyinə görə təşəkkür edirik"

**Strasburqda Avropa Şurası kompleksində Holokost qurbanları anılıb. Almaniya XİN rəhbərinin də iştirak etdiyi mərasimdə Ortodoks Konfederasiyasının ravvini (dini rəhbər) Avixay Apel də çıxış edib. Ravvin çıxışında dünyanı İrana nüvə silahı əldə etməyə imkan verməməyə çağırıb və Azərbaycana xüsusi diqqət ayırıb.**



O qeyd edib ki, Azərbaycan şiə çoxluğa malik əhali ilə əsrlərdir yəhudilərə isti və qayğı ilə davranıb. Bildirib ki, ölkəmizdə antisemitizm yoxdur və İrana qarşı mübarizə aparırıq. Ravvin təəssüf ilə bildirib ki, öz ürəyini yəhudilərə açan, İsraildə səfirlik təsis edən bu müsəlman ölkəsi Avropa İttifaqı tərəfindən lazımi dəstəyi almır: "Əksinə, Fransa Senatı təhlükəsizliyin qorunması və mənəvi dəyərlərin əhəmiyyəti mövqeyini tutan, bununla da Avropanın sərhədlərini qoruyan bu vacib əhəmiyyətli ölkədən neft və qaz alışına embarqo qoymağa çağırır". Avixay Apelin çıxışı Azərbaycan ictimaiyyətində məmnunluqla qarşılanıb.

**Milli Həmrəylik Partiyasının sədri Əlisahib Hüseynov deyib ki, ravvin prosesləri Qərbin bir çox siyasi liderlərindən, parlamentarilərindən fərqli olaraq daha düzgün qiymətləndirə bilir:** "Biz cənab Avixal Apelə ölkəmizə verdiyi səmimi və obyektiv dəstəyinə görə təşəkkür edirik. Ravvinin bu addımı Azərbaycan xalqı ilə əsl həmrəylik nümunəsidir. Azərbaycana qarşı ard-arda qətnamələr qəbul edən Fransa Senatı, Avropa Parlamentinin üzvləri, Laçın yolundakı vəziyyətlə bağlı qərəzli bəyanat yayan BMT-nin Əhali Fondunun rəsmiləri obyektiv və müdrik din xadimlərindən nümunə götürməlidir. Nəhayət, onlar da Azərbaycan kimi önəmli bir ölkəyə düzgün münasibət sərgiləmək yolunu tutmalıdırlar. Bir din xadiminin Azərbaycanla bağlı səsləndirdiyi həqiqətlər Qərbin dar düşüncəli və ermənipərəst siyasətçilərini utandırmalıdır".

**İsmayıl**

**Fransa Senatının üzvü Natali Qule Azərbaycanın İrandakı səfirliyinə silahlı hücumu kəskin şəkildə pisləyib.**



"Report" xəbər verir ki, bu barədə fransalı senator tviter səhifəsində yazıb.

"Azərbaycanın Tehrandakı səfirliyinə edilən, bir təhlükəsizlik əməkdaşının öldüyü, bir neçəsinin isə yaralandığı hücumu kəskin şəkildə pisləyirəm. Mərhum Orxan Əsgərovun ailəsinə dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirəm", - o qeyd edib.

# Fransalı senator Azərbaycanın İrandakı səfirliyində törədilən terror aktını pisləyib

Xatırladaq ki, yanvarın 27-də Bakı vaxtı ilə səhər saat 8:30 radələrində Azərbaycan Respublikasının İran İslam Respublikasındakı səfirliyinə silahlı hücum olub. Məlumata görə, hücum edən şəxs "Kalaşnikov" markalı avtomat silahla mühafizə postunu yararaq, mühafizə xidmətinin rəisini qətlə yetirib. Səfirliyin iki nəfər mühafizə əməkdaşı da hücumun qarşısını alarkən yaralanıblar.






# Tehranda səfirliyimizə qarşı terror aktı

## İranın terrorçu dövlət olduğunu dünya bir daha gördü

**Dünən səhər saatlarında Azərbaycanın Tehrandakı səfirliyinə silahlı basqın edilib. Hücum edən şəxs ”Kalaşnikov” markalı avtomat silahla mühafizə postunu yararaq, mühafizə xidmətinin rəisi - Orxan Əsgərovu şəhid edib. Hücum dəf edilərkən Azərbaycan hüquq-mühafizə orqanlarının səfirliyin mühafizəsinə cavabdeh olan iki əməkdaşı isə yaralanıb.**

Onların vəziyyəti qənaətbəxşdir. Hadisədən sonra xain hücumla bağlı araşdırma başlanılıb. Lakin İran tərəfi terror hadisəsini məişət zəminində baş vermiş hadisə müstəvisinə endirərək gülünc açıqlama verib. Qeyd olunub ki, Azərbaycan səfirliyinə hücum edən şəxs şəxsi motivləri əsas gətirib. Tehranın polis rəisi Hüseyn deyib ki, o şəxs dindirilərkən ailə problemlərinə görə hücum etdiyini iddia edib. Lakin teraktı əks etdirən videogörüntülərin yayılmasından sonra polis rəisinin yalanları ifşa olunub. Hadisədən sonra Azərbaycanın İrandakı səfirliyinin əməkdaşları təxliyə olunub. Baş vermiş terror aktı Azərbaycan dövlətinin və ictimaiyyətinin kəskin reaksiyasına səbəb olub. Prezident İlham Əliyev Azərbaycanın İrandakı səfirliyinə silahlı hücuma dair paylaşımında deyib ki, diplomatik nümayəndəliklərə terror hücumu qəbuledilməzdir: ”Bu terror aktının tezliklə araşdırılmasını və terrorçuların tezliklə cəzalandırılmasını tələb edirik”.

Azərbaycan Xarici İşlər Nazirliyinin bəyanatında bildirilib ki, İran Azərbaycan səfirliyinin təhlükəsizliyinin təmin edilməsi üçün tədbirlər görülməsinə dair müraciətlərimizə lazımi həssaslıq göstərməyib. Vurğulanıb ki, İran tərəfi ”Diplomatik əlaqələr haqqında” Vyana konvensiyasından irəli gələn səfirliyin mühafizəsinin və onun əməkdaşlarının təhlükəsizliyinin təmin edilməsi ilə bağlı müvafiq öhdəliyini yerinə yetirməli idi: ”İrandakı diplomatik missiyamıza qarşı əvvəllər də təhdid cəhdləri olub. Bu kimi halların qarşısının alınması, diplomatik missiyalarımızın təhlükəsizliyinin təmin edilməsi üçün tədbirlər görülməsi İran qarşısında davamlı qaldırılıb. Təəssüf ki, son qanlı terror hücumu bu istiqamətdə təkidli müraciətlərimizə lazımi həssaslıq göstərilməməsinin ağır fəsadlarını nümayiş etdirir. Son zamanlar İranda ölkəmiz əleyhinə anti-Azərbaycan kampaniyasının aparılmasının diplomatik missiyamıza qarşı bu kimi hücumlara rəvac verdiyi qənaətindəyik. İran tərəfindən sözügedən terror hücumunu törədənlərin, habelə bu qanlı əməlin sifarişçilərinin ən qısa müddətdə müəyyən edilərək ən sərt şəkildə cəzalandırılmasını qətiyyətlə tələb edirik”.

İranın Azərbaycandakı səfiri Seyid Abbas Musəvi Xarici İşlər Nazirliyinə çağırılıb. Görüşdə Azərbaycanın Tehrandakı səfirliyinə qarşı törədilmiş silahlı basqının, terror aktının şiddətlə qınanıldığı, diplomatik nümayəndəliklərə qarşı bu kimi hücumların qəbuledilməz olduğu qarşı tərəfin diqqətinə çatdırılıb.

Hadisəni törədən şəxsin Yasin Hüseynzadə adlı İran vətəndaşı olduğu açıqlanıb. Onun İranın xüsusi xidmət orqanları, xüsusilə də SEPAH-la əlaqəli olduğuna dair şübhələr var. Çox güman ki, Azərbaycan səfirliyinin əməkdaşı terrorçunu zərərsizləşdirib tutmasaydı, faciənin miqyası daha böyük olacaq, bütün səfirlik əməkdaşları qətlə yetiriləcəkdi. Terrorçu hadisəni törədəndən sonra isə əlini-qolunu sallayıb oradan gedəcək, İran dövləti də aşkarda guya onun axtarıldığı bildirib, gizlində isə tapşırığı uğurla yerinə yetirdiyinə görə qəhrəman elan edəcəkdi. Lakin məhz Azərbaycan səfirliyinin əməkdaşının fədakarlığı sayəsində planlaşdırılan qətliamın həyata keçməsi mümkün olmayıb. İran tərəfinin ən müxtəlif səviyyələrdə verdiyi açıqlamalarda hadisəyə məişət donu geyindirməyə çalışması qeyd olunan arqumentləri daha da gücləndirir. Rəsmi Tehran unudur ki, motivindən asılı olmayaraq, səfirliyə hücuma görə məhz o məsuliyyət daşıyır. Çünki səfirliklərin mühafizəsi onların yerləşdiyi ölkələrin öhdəliyindədir. İran isə bu öhdəliyi nəinki yerinə yetirir, əksinə, diplomatik nümayəndəliklərə hücumlara özü şərait yaradır. İranın hər zaman terrora dəstək verdiyi bütün dünyaya məlumdur. Tarixə nəzər yetirsək, indiyə qədər İranda səfirlik, konsulluq, beynəlxalq nümayəndəliklərə, xarici vətəndaşlara hücumlarla bağlı xeyli fakt görə bilərik. İranın tarixi xarici diplomatlara və diplomatik nümayəndəliklərə terrorçu münasibəti ilə zəngindir. Uzaq 1829-cu il yanvarın 30-da tehranlılar çar Rusiyasının İrandakı səfirliyinə hücum edib, səfir, tanınmış rus yazıçısı Aleksandr Qriboyedov və səfirliyin mühafizəsini təşkil edən 35 kazakı qətlə yetirmişdilər. Qriboyedovun meyiti tanınmaz hala salınmışdı. 1979-cu ildə İranda özlərini ”İmam Xomeyni yolçuları” adlandıran bir qrup tələbə ABŞ-nin Tehrandakı səfirliyinə hücum edərək 53 amerikalını girov götürüb, onları 444 gün girov saxlayıb. 2011-ci ildə yüzlərlə tələbə Böyük Britaniyanın İrandakı səfirliyinə hücum edib, səfirliyin binasını ələ keçirib, pəncərələri sındırıb, səfirliyi talan edib. Növbəti oxşar hadisə isə 2016-cı ildə baş verib. İranda radikal kütlə tərəfindən Səudiyyə Ərəbistanın Tehrandakı səfirliyi və Məşhəddəki konsulluğunun binaları yandırılıb. Bütün bunların ardınca, bu gün də Azərbaycan səfirliyinə silahlı hücum onu deməyə əsas verir ki, İranda heç bir səfirliyin, diplomatik nümayəndəliyin toxunulmazlığına zəmanət yoxdur. Şübhə doğurmayan digər məsələ isə odur ki, İran baş vermiş terror aktı ilə bağlı araşdırmanı obyektiv aparmayacaq. Tehran polisinin rəisi, eləcə də İran Xarici İşlər Nazirliyinin açıqlamalarının bunun məhz belə olacağının anonsu hesab etmək olar. Hadisənin baş verdiyi andan terrorun ört-basdır edilməsi, terrorçunun qorunması, terrorun mahiyyətinin təhrif edilməsi üçün bir-birinin ardınca yalan məlumatlar və açıqlamalar yayan İranın bu xain hücumu obyektiv araşdırmayacağını bəri başdan əminliklə söyləmək olar.






### Səfirliyimizə qarşı törədilən terror aktı Azərbaycana qarşı hücumdur və buna görə cavab verilməlidir

**Millət vəkili Hikmət Babaoğlu deyib ki, İranda səfirliyimizə qarşı törədilən terror aktı Azərbaycana qarşı hücumdur və buna görə cavab verilməlidir. Deputatın sözlərinə görə, İran Azərbaycan səfirliyinə qarşı təşkil olunan hücumla bağlı rəsmi, dəqiq və məntiqli izahat verməlidir:** ”Terror hadisəsi təkcə iki ölkə arasında deyil, bütövlükdə regionda baş verən hadisələr kontekstində çox təhlükəli eskalasiyaların yaranmasına gətirib çıxara bilər. Nəzərə almaq lazımdır ki, bu, Azərbaycanın rəsmi nümayəndəliklərinə qarşı birinci dəfə təşkil olunan terror hadisəsi deyil. Bir müddət öncə Böyük Britaniyada Azərbaycanın səfirliyinə qarşı İran mənşəli radiklal qruplar tərəfindən terror təşkil edilmişdi. Həmin vaxt da İran törədilmiş cinayətlə bağlı qaneedici və məntiqli izahat verməmişdi. Hadisəni radikal qrupların müstəqil aktı kimi qiymətləndirmişdi. Onsuz da regionda hadisələr çox mürəkkəbdir. Bu vaxta qədər İran rəsmilərinin regiondakı mümkün sülh və kommunikasiyaların açılması ilə bağlı qeyri-konstruktiv, radikal mövqeləri deməyə əsas verir ki, İran rejiminin müəyyən qurumları ilə bu hadisəni törədənlər arasında bir əlaqə ola bilər. Buna görə də bu məsələyə dəqiq aydınlıq gətirilməlidir. Araşdırma prosesinə azərbaycanlı mütəxəssislər cəlb edilməli, bənzər hadisələrin baş verməməsi üçün İran tərəfi rəsmi zəmanət verməlidir”.

**Deputat Bəhruz Məhərrəmov da bildirib ki, səfirliyə silahlı hücum hər şeydən öncə beynəlxalq hüququn pozuntusudur:** ”İnanmaq istəyirik ki, rəsmi Tehran belə bir hadisənin yaşanmasını arzu etməzdi. Lakin istənilən halda 1961-ci il konvensiyasına əsasən, baş verənlərə görə səfirliyin yerləşdiyi ölkə kimi İran məsuliyyət daşıyır. Xüsusən, hüquq-mühafizə sisteminin, daxili nəzarət şəbəkəsinin güclü olduğu, az qala hər bir fərdin nəzarət altında olduğu bir ölkədən danışdığımızı da unutmamalıyıq. İkincisi, beynəlxalq müdafiədən istifadə edən xarici dövlət nümayəndəsinin xidməti sahəsinə hücum etmə Azərbaycan Cinayət Məcəlləsinin 102-ci maddəsinə əsasən, cinayət məsuliyyəti yaradır. Yəni İran bu caniləri məhkum etməzsə, onları məhkum etmək bizim haqqımızdır. Məsələnin siyasi tərəfinə gəlincə, məlumdur ki, Prezident İlham Əliyevin müasir mürəkkəb geosiyasi şəraitdə müstəqil, balanslı siyasəti, ölkənin artan nüfuzu və hərbi-siyasi qüdrətinin kimləri narahat etdiyi aşağı-yuxarı bizə bəllidir. İndiki həssas dönəmdə yalnız erməni yox, onun havadarlarını da yerində oturtmağımızı çoxları həzm edə bilmir. Bu çərçivədə, İrandakı səfirliyimizə hücumun gerçəkləşdirilməsi Azərbaycanın mövqeyinin zəiflədilməsinə, qonşularla münasibətlərin gərginləşdirilməsinə yönəlik uğursuz təxribat cəhdinin davamıdır. Hesab edirəm ki, İran tərəfi səfirliyimizə çirkin hücumu pisləyən bəyanatla kifayətlənməyib ən qısa zamanda qəti addımlar atmalıdır”.

**İsmayıl Qocayev**

# "Səfirliyimizə hücum ciddi siyasi qalmaqaldır"

## Hərbi ekspert: “Tarixdə səfirlərin öldürülməsi fonunda müharibənin başlanılmasının nümunələri var”



**”Adətən belə hücumların ardından dövlət rəhbərləri təhlükəsizliyi təmin etmədikləri üçün üzr istəyir və bundan sonra baş verməyəcəyi yönündə təminat verirlər”**

Xarici işlər Nazirliyi Azərbaycanın Tehrandakı səfirliyinə silahlı hücumla bağlı açıqlama verib. XİN-dən bildirilib ki, 27 yanvar 2023-cü il tarixində Bakı vaxtı ilə səhər saat 08:30 radələrində Azərbaycan Respublikasının İran İslam Respublikasındakı səfirliyinə silahlı hücum olub: ”Hücum edən şəxs ”Kalaşnikov” markalı avtomat silahla mühafizə postunu yararaq, mühafizə xidmətinin rəisini qətlə yetirib. Səfirliyin iki nəfər mühafizə əməkdaşı da hücumun qarşısını alarkən yaralanıb. Onların vəziyyəti qənaətbəxşdir. Hazırda bu xain hücum üzrə araşdırma gedir”.

**Hadisəni ”Şərq”ə dəyərləndirən hərbi-siyasi ekspert Elxan Şıxəliyev bildirib ki, İran siyasi hakimiyyəti ərazisində yerləşən səfirliklərin mühafizəsinə cavabdehlik daşıyır:** ”Görünür, rəsmi Tehran ərazisində fəaliyyət göstərən diplomatik korpusların mühafizəsində çətinlik çəkir. Ümumiyyətlə, baş verən hücum ciddi siyasi qalmaqaldır.

Adətən belə hücumların ardından dövlət rəhbərləri təhlükəsizliyi təmin etmədikləri üçün üzr istəyir və bundan sonra baş verməyəcəyi yönündə təminat verirlər.

Başqa bir məsələ isə belə hadisələrin sonrakı mərhələdə hərbi konfliktə çevrilməsidir. Tarixdə səfirlərin öldürülməsi fonunda müharibənin başlanılmasının nümunələri var”.

**Nihat Müzəffər**

# Tehranın polis rəisi vəzifəsindən kənarlaşdırıldı

**Tehranın polis rəisi general Hüseyn Rəhimi vəzifəsindən kənarlaşdırılıb. Bu barədə ”Azad İran” ”Telegram” kanalı məlumat yayıb.**

İranın Baş Polis Komandanlığının əmri ilə general Abbasəli Məhəmmədiyan Tehranın polis rəisi vəzifəsinə təyin edilib.

O, Əlborz əyalətinin polis rəisi və Tehran Təhlükəsizlik Polisinin keçmiş rəhbəri olub.

Tehranın keçmiş polis rəisi general Rəhimi isə ”Fəraca” İqtisadi Təhlükəsizlik Polisinin rəhbəri təyin edilib.



# Manat hazırda ən stabil valyutadır

## Ona görə dollara çox böyük həcmdə ehtiyac yoxdur



**Mərkəzi Bankın təşkil etdiyi son iki valyuta hərraclarında banklar tərəfindən heç bir sifariş təqdim edilməyib. Bu o deməkdir ki, hərraca çıxarılan dolları heç bir bank almaqda maraqlı olmayıb.**

Ötən il isə Mərkəzi Bank əksər hərraclarda təklifin tələbi üstələdiyini, eyni zamanda bankların nağd valyuta alışının satışı üstələdiyini bildirmişdi.

Ekspertlərin ehtimalına görə, Rusiyadan Azərbaycana pul köçürmələri və əhalinin satışları artdığından banklar əhalidən kifayət qədər məbləğdə xarici valyuta aldıqları üçün hərracda valyuta sifariş etməyə maraq göstərmirlər.

**Millət vəkili Vüqar Bayramov isə hesab edir ki, dollara tələbin azalmasının bir neçə əsas səbəbləri var. Əvəlla, mövsümi olaraq dollara tələbin azalması müşahidə olunur. Bu daha çox idxal əməliyyatlarının həcmi ilə bağlıdır:** ”İlin ilk ayında idxalın həcminin azalması dollara tələbi də aşağı salır. Ötən ilin ilk 11 ayında idxalın həcmi 12 milyard 881 milyon dollar olub. Bu, idxalın həcmində 1,2 faiz artım deməkdir. İdxal dollara əsas tələb yaradan faktordur. İdxalın həcminin dəyişməsi xarici valyutaya tələbi müəyyənləşdirir.

Digər tərəfdən əhalinin də dollara tələbi azalmaqdadır. Burada iki mühüm məqam var. Birincisi, dollar alışına limitlər qalmaqdadır. Bu da dollar alışına birbaşa təsir göstərir. İkincisi, manatın uzun müddət stabil qalması dollar yığımlarına tələbi azaldıb. Banklarda əhalinin 11 milyard 753 milyon manatlıq depozitinin 7 milyard 139 milyon manatı milli, 4 milyard 603 milyon manatı isə xarici valyutada saxlanılır.

Manatın məzənnəsinin dəyişməsinə gəldikdə isə Mərkəzi Bankın məzənnə siyasəti üçün manatın güclənməsi deyil, mövcud kursu qoruyub saxlamaq daha prioritet görsənir. Azərbaycanda hələlik üzən məzənnə siyasətinə keçilmədiyi üçün manatın kursuna Mərkəzi Bank intervensiya alətləri ilə birbaşa təsir edə bilir. Bu baxımdan mövcud məzənnə siyasəti manatın kursunun möhkəmlənməsini hədəfləmir. Qlobal bazarlardakı volatilliyi nəzərə alsaq, kursda istənilən dəyişikliyin orta və uzun müddətli dövrdə əsk təsirləri ola bilər. İndiki halda, Mərkəzi Bank üçün hədəf mövcud kursu qorumaq daha prioritet olaraq qalmaqdadır”.

Digər millət vəkili Rüfət Quliyev isə bildirib ki, bu məsələdə hər hansı ciddi dəyişikliklər gözləmək lazım deyil: ”Çox güman ki, maliyyə sektorunda hansısa daxili proseslər gedir. Bu tendensiya davam etməyəcək. Əlbəttə ki, dollar satılmağa davam edəcək, sadəcə əvvəlki qədər dollara tələbatın həcmi azalır”.

Deputatın sözlərinə görə, indi manat olduqca stabildir: ”Manatın bu stabilliyi dəstəklənir. Hətta dövlət siyasəti dollarla manatın paritetliyini dəstəkləməsindən ibarətdir. Manat stabil valyuta olduğuna görə dollara çox böyük həcmdə ehtiyac yoxdur”.

**İqtisadçı-ekspert Samir Əliyev isə deyib ki, ilk dəfədir Mərkəzi Bankın valyuta hərracında banklar tərəfindən valyuta sifarişi verilməyib. Ondan əvvəlki hərracda satışın həcmi cəmisi 1,5 milyon dollar olub. Lakin 2023-cü il başlayandan bəri keçirilmiş hərraclarda satışın azalması tendensiyası olub:** ”Belə ki, yanvarın 5-də keçirilmiş ilin ilk hərracında 52,7 milyon dollar satıldığı halda növbəti hərraclarda uyğun olaraq 51,2 milyon dollar, 35 milyon dollar, 18,7 milyon dollar, 1,5 milyon dollar olub və nəhayət, sonuncu hərracda tələbat olmayıb.

Heç hərraclarda bankların dollara yüksək tələbi olan zamanlarda bankların alış məzənnələri bu dərəcədə yüksək olmurdu. Ən yaxşı halda 4-5 bank 1,6990 AZN məzənnəsi ilə dollar almağa üstünlük verirdi. Belə çıxır ki, banklara əhalidən dollar almaq sərf edir, nəinki Mərkəzi Bankdan. Halbuki əslində əksinə olmalıdır”.

Ekspert buna Rusiyadan dollar axını fonunda banklarda dollar bolluğunun olmasının və ya ilin əvvəli olduğundan büdcə icrasının ləngiməsi səbəbindən manat qıtlığının yaranmasının səbəb ola biləcəyini istisna etməyib.

**Şəymən**



# İranın terroru araşdırmaq niyyəti yoxdur

## Fuad Abbasov: "Biz Tehrandan ciddi açıqlamalar və nəticələr gözləyirik"

**"Biz İrandan bu hadisənin sonuna qədər araşdırılmasını tələb edəcəyik. Əgər onlar məsələni araşdırmaqdan boyun qaçırsa və günahkarları cəzalandırmasa, Azərbaycanın bunu etmək üçün kifayət qədər gücü və vəsaiti var.**

İrandakı diplomatik missiyamıza qarşı əvvəllər də təhdid cəhdləri olub".

Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin ölkəmizin İrandakı səfirliyinə qarşı törədilən terror aktı ilə bağlı yaydığı bəyanatda qeyd edilib.

Bildirilib ki, bu kimi halların qarşısının alınması, diplomatik missiyalarımızın təhlükəsizliyinin təmin edilməsi üçün tədbirlər görülməsi İran qarşısında davamlı qaldırılıb: "Təəssüf ki, son qanlı terror hücumu bu istiqamətdə təkidli müraciətlərimizə lazımi həssaslıq göstərilməməsinin ağır fəsadlarını nümayiş etdirir.

Son zamanlar İranda ölkəmiz əleyhinə anti-Azərbaycan kampaniyasının aparılmasının diplomatik missiyamıza qarşı bu kimi hücumlara rəvac verdiyi qənaətindəyik".

Xatırladaq ki, yanvarın 27-də Bakı vaxtı ilə səhər saat 8:30 radələrində Azərbaycan Respublikasının İran İslam Respublikasındakı səfirliyinə silahlı hücum olub. Terroru törədən şəxs "Kalaşnikov" markalı avtomat silahla mühafizə postunu yararaq, mühafizə xidmətinin rəisini qətlə yetirib. Səfirliyin iki nəfər mühafizə əməkdaşı da hücumun qarşısını alarkən yaralanıblar. Yaralıların vəziyyəti qənaətbəxşdir.

Terroru törətmiş şəxs Azərbaycan səfirliyinin əməkdaşı tərəfindən saxlanılıb.

**Hadisəyə münasibət bildirən tanınmış jurnalist, siyasi şərhçi Fuad Abbasov "Şərq"ə vurğulayıb ki, heç bir dövlət öz ərazisində yerləşən səfirliyə vətəndaşı vasitəsilə açıq şəkildə hücum edə bilməz:** "Əgər terror aktını törədən başqa bir ölkənin vətəndaşı olsa idi, güzəştə getmək olardı. Yəni heç bir maneə olmadan əli silahlı şəxsin səfirliyə hücum etməsinin yalnız bir adı var: terror aktı. Bunu kimlərin və nə üçün həyata keçirdiyini isə yalnız istintaq göstərəcək.

Biz təxminlər yürüdərək hücumun İranın daxilində olan və iki dövlət arasındakı münasibətləri pozmaq istəyən qüvvələr , SEPAH-ın və ya ermənilərin işi olması ilə bağlı şərh verə bilərik. Amma dəqiq məlumat üçün istintaq olmalıdır. Lakin görünən odur ki, rəsmi Tehranın istintaq aparmaq niyyəti yoxdur. Hətta bu saatlarda Azərbaycandakı İran səfirliyinin qarşısındakı mühafizə tədbirləri, cinayət həyata keçirilən Azərbaycan səfirliyinin qarşısındakından dəfələrlə çoxdur.

Orada yalnız bir polis avtomobili yerləşdirilib. Nə yol bağlanılıb, nə də polis karvanı var. Sanki hadisə İranın vecinə deyil. Bu isə belə bir təəssürat yaradır ki, rəsmi Tehranın məsələni araşdırmaq arzusu yoxdur. Ona görə də bunun İranın daxilində olan və Azərbaycana qarşı çıxan hansısa qüvvə tərəfindən əvvəlcədən planlaşdırılmış terror aktı olduğunu düşünürəm. Biz İrandan bu hadisənin sonuna qədər araşdırılmasını tələb edəcəyik. Əgər onlar məsələni araşdırmaqdan boyun qaçırsa və günahkarları cəzalandırmasa, Azərbaycanın bunu etmək üçün kifayət qədər gücü və vəsaiti var".

**Nihat Müzəffər**

# "Kəşfiyyat təşkilatları hər şeyi müəyyən edir"

## Türk general "Şərq"ə Azərbaycan səfirliyinə hücumdan danışdı



**"İrandakı Azərbaycan səfirliyində baş vermiş terror hadisəsini şiddətlə qınayırıq".**

**Bunu "Şərq"ə açıqlamasında Türkiyənin ehtiyatda olan generalı, hərbi-siyasi ekspert Ərdoğan Karakuş deyib. O qeyd edib:**

"Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlu da "Hadisənin günahkarları təcili tapılmalıdır. Azərbaycanın səfirliyinə edilən hücumu Türkiyəyə edilmiş qəbul edirik" deyib. Buna əlavə edim ki, günahkarların tapılması kifayət deyil. Əsasən onların kim tərəfindən istifadə edildiyini öyrənmək lazımdır.

Yəni belə olduğu təqdirdə Azərbaycan və Türkiyə hansı addımları atacağını daha rahat şəkildə düşünə biləcək. Amma bu işlərdə kəşfiyyat təşkilatları hər şeyi müəyyən edir. Terrorçuların hansı kəşfiyyat idarəsi tərəfindən idarə olunduğunu tapmaq lazımdır.

Bunun üçün isə Türkiyə və Azərbaycan birlikdə çalışmalıdır. Ümumiyyətlə, Azərbaycanın Vətən müharibəsində torpaqlarını azad etməsi ən çox İranı narahat etdi.

Bunun əsas səbəbi isə orada 47 milyon türkün yaşamasıdır. İranda 30 milyon cənubi azərbaycanlı və 17 milyon digər türk mənşəli xalqlar yaşayır.

Ümumiyyətlə, İranı düşmənçiliyi dayandırmağa məcbur etmək lazımdır. Rəsmi Tehranın İrəvanın tərəfini tutmasının qarşısını almaq üçün birlikdə hərəkət etməliyik. Bir daha Azərbaycana başın sağ olsun deyir, yaralıların tezliklə sağalmasını diləyirəm".

**Nihat Müzəffər**

# Diplomatik korpusumuz geri çağırıla bilər

## Səfirliyimizə silahlı hücuma görə molla rejimi məsuliyyət daşıyır



**"Azərbaycanın Tehrandakı səfirliyinə edilən silahlı hücum tamamilə siyasidir və məsuliyyəti birbaşa molla rejimi daşıyır".**

*Bu barədə "Şərq"ə açıqlamasında politoloq Turan Rzayev deyib. Analitik vurğulayıb ki, İranda etiraz aksiyalarının davam etdiyini nəzərə alsaq, məntiqlə İranda nəinki odlu silah, heç soyuq silah belə daşımaq mümkün olmamalıdır.*

Lakin səfirliyə hücum edən şəxs paytaxt Tehranda səfirlik binasının önünə qədər "Kalaşnikov" markalı avtomatla gəlib və hüquq-mühafizə qüvvələri tərəfindən yoxlanılmayıb: "Digər tərəfdən hücum edən şəxsin "Kalaşnikov" markalı avtomat silahla mühafizə xidmətinin rəisini qətlə yetirməsi, iki nəfəri yaralaması göstərir ki, xüsusi təlim keçmiş biridir və SEPAH-la birbaşa əlaqəsi var. İran tərəfi öncə hadisəni törədən şəxsin erməni olduğuna dair informasiya yaysa da, sonra məlum oldu ki, teraktı İran vətəndaşı Yasin Hüseynzadə törədib. Molla rejimi hadisəni Ermənistan-Azərbaycan gərginliyinə yönəldərək məsuliyyətdən yayınmağa çalışmaq niyyətində idi. Səfirliyimizə edilən hücumun tarixinin 27 yanvar olması səbəbi ilə rejim hadisənin ASALA terror təşkilatı tərəfindən törədildiyini əsaslandırmağa çalışacaqdı. Çünki 1973-cü il 27 yanvar tarixində ASALA terror təşkilatının üzvü Qurgen Yanikyan ABŞ-də türk səfir Mehmet Baydar və Bahadır Dəmiri Santa Barbaradakı Baltimore hotelinə dəvət edir və orada teraktı həyata keçirib. Hadisənin İran vətəndaşı Yasin Hüseynzadə tərəfindən törədildiyi aşkarlanmasaydı, mümkündür ki, terrorun məsuliyyətini ASALA üzərinə götürəcəkdi. Nəticə etibarilə İran rejiminin bu ucuz planı iflasa uğradı. Bu hadisənin məsuliyyətini birbaşa İran hakimiyyəti daşıyır".

### Bakı ilk növbədə Vyana Konvensiyasının kobud şəkildə pozulmasını əsas gətirib İrana sərt nota verməlidir

**Ekspert diqqətə çatdırıb ki, rəsmi Bakı İranın sərgilədiyi ermənipərəst mövqe və təhdidkar ritorikaya İsraildə səfirlik açaraq cavab vermişdi:** "Bununla Azərbaycan İrana ondan çəkinmədiyini və nə qədər qərarlı olduğunu göstərmişdi. Tehrandakı səfirliyimizə edilən hücumla İran Azərbaycan-İsrail münasibətlərinin inkişafından narahat olduğunu dedi. Görünür, Tehran bununla digər ölkələrdəki səfirliklərimizə də mümkün hücumların ola biləcəyi mesajını verir. Hadisənin molla rejimi tərəfindən törədildiyi aşkarlanarsa və rəsmi şəkildə elan edilərsə, bu, müharibə səbəbidir. Rəsmi Bakı ilk növbədə Vyana Konvensiyasının kobud şəkildə pozulmasını əsas gətirib İrana sərt nota verməlidir. Hətta hadisə ilə bağlı araşdırmanın nəticəsindən asılı olaraq, diplomatik korpusumuz geri çağırıla da bilər".

**İsmayıl**

# Ordudakı məhbuslar, qatillər geri dönür

## Bu isə Rusiya ictimaiyyətinin narahatlığına və narazılığına səbəb olub



**Rusiya Prezidenti Vladimir Putin Ukraynaya hücumun ilk günlərində məhkumları azad edərək cəbhəyə göndərdi. Məhkumlara verilən vəd o idi ki, əgər 6 ay döyüşərək sağ qalmağı bacarsalar, ölkələrinə geri dönə biləcəklər.**

Artıq təcavüzkarlar, qatillər və digər cinayətkarlar Rusiyaya geri qayıtmağa hazırlaşmağa başlayıb. Bu isə rus ictimaiyyətinin narahatlığına və narazılığına səbəb olub.

**"Çox içmə, zorlama, pis işlərə qarışma"**

"Şərq" qəzeti Türkiyənin "milliyet.com.tr" saytına istinadən xəbər verir ki, müharibənin gedişatında Rusiyanın cəbhədəki ən böyük kozlarından biri olan Vaqner qrupunun vəhşiliyi dünya gündəminə bomba kimi düşdü. Putinin şəxsən maliyyələşdirdiyi hərbi bölmənin təslim olan əsgərlərə qarşı vəhşiliyi üzə çıxdı. Digər tərəfdən, Putinin qatillərdən, təcavüzkarlardan və digər ağır cinayətkarlardan ibarət "Vaqner ordusu" ilə bağlı yeni bir planın olduğu bəlli oldu. Vaqner qrupunun lideri Yevgeni Priqojin bəyan etdi ki, geri qayıtmağı planlaşdıran məhbusların ilk qrupu artıq yola düşüb. "Putinin şefi" ləqəbli Priqojinin azadlığa buraxılan ilk qrup məhbuslarla "xoş sözlər" dediyi anlar da kameralara düşüb. O, geri qayıdan məhbuslara bu xəbərdarlıqlar edib: "Çox içmə, zorlama, pis işlərə qarışma". Rus xalqı isə bu geridönüşdə son dərəcə narahatdır. Bəzi ailələrə müəmmalı telefon zəngi gəlib ki, səlahiyyətlilər onlarla danışıb və övladlarını bayıra buraxmamaq tapşırılıb. Vaqner qrupunun ən tanınmış əsgərlərindən olan Aleksandr Tyutin haqqında maraqlı iddia irəli sürülüb. Həmkarını öldürdüyü üçün həbsə atılan Tyutinin azadlığa çıxdıqdan sonra medal aldığı və həyat yoldaşı ilə görüşmək üçün Türkiyəyə yola düşdüyü iddia edilib.

**Ukraynaya göstərilən dəstəklə silah-sursat balansı kökündən dəyişdi**

Rusiyanın bir ilə yaxındır ki, davam edən işğalı Kremlin gözlədiyi kimi nəticələnmədi. Müharibənin ilk günlərində Kreml Kiyevə girib Vladimir Zelenskini güllələbaran etdikdən sonra marionet administrasiyası tətbiq etməyi planlaşdırırdı. Lakin rus ordusu müharibənin ikinci ayında Kiyevdən geri çəkildi. Şimal cəbhəsinin bağlanması ilə işğal şərq və cənub cəbhələrinə keçdi. Rusiya qoşunları aylarla davam edən savaşdan sonra sadəcə liman şəhəri Mariupolu ələ keçirə bildi. Şərqdə isə demək olar ki, bütün Donetsk və Luqansk işğal edildi. İyun ayında Ukraynaya göstərilən dəstəklə silah-sursat balansı kökündən dəyişdi.

**Dünya müharibəsi! Almaniya və ABŞ-ni Avropa ölkələri izlədi..**

Çoxmənzilli reaktiv yaylım atəşi sistemi HIMARS-ın Ukraynaya gəlməsi əvvəlcə rus işğalçılarının irəliləyişini dayandırdı. Sonra əks-hücum baş tutdu. Avqustun sonunda hərəkətə keçən Ukrayna qoşunları bir neçə gün ərzində əvvəlcə ölkənin ikinci böyük şəhəri Xarkovu nəzarətə götürdü. Ötən ilin sentyabrında aylarla təxirə saldığı səfərbərlik qərarını "qismən" elan etməli olan Rusiya lideri nəhayət, Ukrayna bataqlığından qurtulmaq üçün işğal komandirini, Baş Qərargah rəisi Valeri Gerasimovu dəyişdi. Suriyada döyüş təcrübəsi olan generalı Ukraynadakı qoşunların rəhbəri təyin etdi. Rusiyanın məğlubiyyətinin ən böyük səbəbi Ukraynanın NATO ölkələrindən aldığı dəstəkdir. İşğalın ilk aylarında Ukrayna Türkiyədən aldığı minlərlə "Javelin" və "Nlaw" tank əleyhinə raketlərdən, həmçinin "Bayraktar TB2" pilotsuz uçuş aparatlarından istifadə edib. Müharibənin sonrakı aylarında "IRIS-T", "NASAMS," "Starstreak" və nəhayət, "Patriot"lar sahədə öz yerini aldı.

**İsmayıl**

# Paşinyan mövqeyində qətidir

## O, Rusiya və KTMT-nin yerinə Avropanı və Fransanı seçib



**Rusiya Xarici İşlər Nazirliyi Avropa İttifaqının Ermənistan-Azərbaycan sərhədində iki illik missiya yerləşdirməsi barədə qərarı ilə bağlı bəyanatını şərh edib.**

XİN-dən verilən açıqlamada bildirilib ki, İrəvan KTMT missiyasının Ermənistana göndərilməsi istiqamətində işi sona çatdırmadan Aİ-nin xeyrinə seçim etməyi üstün tutur: "Əgər erməni müttəfiqlərimiz KTMT-nin potensialından istifadə etməkdə maraqlı olsalar, onun missiyası tez bir zamanda Ermənistanda yerləşdirilə bilər". Xatırladaq ki, Avropa İttifaqının xarici işlər nazirləri Ermənistanda "mülki missiya"nın yaradılmasını təsdiqləyiblər. Qeyd olunub ki, missiyanın məqsədi Ermənistanın sərhədlərində sabitliyi təşviq etməkdir: "Missiya planlı patrullar həyata keçirəcək və vəziyyət barədə hesabatlar təqdim edəcək". Məlumat üçün bildirək ki, missiyanın mandatı iki il olacaq və operativ qərargahı Ermənistanda yerləşəcək. Missiya heyətinin 200 nəfərdən ibarət olacağı deyilir.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu bildirib ki, Kreml Avropa İttifaqı missiyasına görə Ermənistan hökumətinin başçısından narazıdır:** "Bir neçə gün əvvəl Rusiyanın xarici işlər naziri Sergey Lavrov açıqlama verdi. Bildirdi ki, Ermənistan üçün Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) missiyası faydalıdır. Digər tərəfdən Avropa İttifaqının missiyası Azərbaycanla razılaşdırılmadığına görə uğur qazanmayacaq. Nikol Paşinyan və Ermənistanın digər rəsmiləri Lavrovun açıqlamasını qulaqardına vurdular. Kreml növbəti dəfə İrəvanı xəbərdar etdi. Paşinyan isə mövqeyində qətidir. O, Rusiya və KTMT-nin yerinə Avropanı və Fransanı seçib. Kreml Paşinyanı cəzalandırmaq barədə düşünməlidir. Moskva üçün problem ondadır ki, Ermənistandakı tərəfdarları zəifdir və Paşinyanı hakimiyyətdən uzaqlaşdıra bilmirlər. Paşinyana ən böyük zərbə Kremlin Rusiya Xarici İşlər Nazirliyi vasitəsilə "Azərbaycanın razı olmayacağı halda Rusiya hərbi kontingenti 2025-ci ildə Qarabağı tərk edəcək" şəklində bəyanat verməsi olar".

**İsmayıl Qocayev**

# Fevralın ilk həftəsinə kimi məsələ aydınlaşacaq

## Əgər kimsə təhsil və səhiyyə sektorunda çalışırsa və maaşı 300 manat idisə, mütləq artırılmalıdır



**"Sosial şəbəkədə ən çox verilən suallar müəllimlərin əməkhaqlarının nə zaman artması ilə bağlıdır". Bu barədə millət vəkili Vüqar Bayramov deyib. Deputat xatırladıb ki, Səhiyyə Nazirliyinin tabeçiliyindəki müəssisələrin maaşları Vahid Tarif Cədvəli (VTC) ilə tənzimləndiyi üçün onların əməkhaqları yanvarın 1-dən etibarən artırılıb. Bununla bağlı Nazirlər Kabineti tərəfindən qərar da qəbul olunub:**

"Bu aydan etibarən orta hesabla 15 faiz artım səhiyyə işçilərinin maaşlarına əlavə olunacaq. Bütövlükdə, səhiyyə sektorunda bir sıra müəssisələr sahə nazirliyinə, digərləri isə TƏBİB-ə tabedir. Səhiyyə Nazirliyi tabeçiliyində olan müəssisələrdə çalışan və maaşları VTC ilə müəyyənləşən vətəndaşlarımızın əməkhaqları son artımlara aid olundu. Elm və Təhsil Nazirliyinin, o cümlədən TƏBİB-in ayrıca əməkhaqqı sxemi var. Bu qurumlar maaş məbləği müəyyənləşən zaman əməyin məhsuldarlığı meyarına əsaslanmağa üstünlük verirlər. Həmin sektorlarda təşkil edilən qiymətləndirmələr də məhz bununla bağlıdır. Yəni daha yüksək məhsuldarlığa daha çox ödəniş edilir".

Parlament üzvü vurğulayıb ki, bu sektorlar üzrə çalışan və əməkhaqları minimum səviyyədən aşağı olanların maaşları artıq artırılıb: "Heç bir sektorda minimum əməkhaqqı məbləğindən az maaş verilə bilməz. Əgər kimsə təhsil və səhiyyə sektorunda çalışırsa və maaşı 300 manat idisə, mütləq artırılmalıdır. Fevral ayının ilk həftəsinə kimi bu məsələnin aydınlaşacağı gözlənilir. Çünki bu sektorlar üzrə uyğunlaşdırma üçün 1 ay zaman ayrılmışdı".

**İsmayıl**

# Hər gün addım-addım hədəfə doğru irəliləyirik

## Qısa müddət ərzində Qərbi Azərbaycana dönmək üçün daha böyük işlər görmək niyyətindəyik



**Qərbi Azərbaycan İcmasında "Qayıdış Konsepsiyası"nın hazırlanması istiqamətində işlər yekunlaşıb və layihə Müşahidə Şurasına təqdim olunub. Şura Konsepsiyanı müzakirə edərək təsdiqləyib. Vurğulanıb ki, "Qayıdış Konsepsiyası"nın hazırlanması məqsədilə silsilə tədbirlər, fərdi və qrup halında mütəxəssislərlə görüşlər keçirilib. Müzakirələr zamanı yüzlərlə təklif irəli sürülüb, bütün təkliflər İşçi Qrupunda sistemləşdirilib. Təhlil edilərək ümumiləşdirilib və sonda sənədin layihəsi hazırlanıb. Qərbi Azərbaycan İcmasının sədri Əziz Ələkbərli deyib ki, "Qayıdış Konsepsiyası" Qərbi azərbaycanlıların tarixi torpaqlarına qayıtması istiqamətində atılan mühüm addımdır: "Son 200 ildə azərbaycanlılar Ermənistan tərəfindən deportasiyalara, soyqırımlarına məruz qalıb. Təkcə sonuncu deportasiya zamanı 300-ə yaxın məscid, 500-ə yaxın qəbiristanlığımız dağıdılıb. Bu konsepsiya tarixi ədalətə əsaslanır və yaxın vaxtlarda "Qayıdış Konsepsiyası" ictimaiyyətə açıqlanacaq".**

Qərbi Azərbaycan İcması Müşahidə Şurasının sədri Misir Mərdanov bildirib ki, icma bundan sonra işini daha da sürətləndirəcək. Onun sözlərinə görə, bu günü görən hər bir Azərbaycan vətəndaşı özünü xoşbəxt saymalıdır: "Bu addımı atmağımızda bizi dəstəkləyən Prezident İlham Əliyevə icmamız adından öz minnətdarlığımızı bildiririk. Fikrimcə, icma bundan sonra işini daha da sürətləndirəcək. 44 günlük müharibədə olduğu kimi, bu konsepsiyanın həyata keçirilməsində də Azərbaycan xalqı Prezident İlham Əliyevin arxasında olacaq".

İcmanın Mətbuat xidmətinin rəhbəri Ülviyyə Zülfiqar deyib ki, Qərbi Azərbaycandan deportasiya olunan 100 min nəfər qeydiyyata alınıb. Mətbuat sözçüsü Qərbi azərbaycanlıların siyahıya alınması prosesinin davam etdiyini söyləyib. Bildirib ki, bu hər gün 250-300 nəfər qeydiyyata düşmək üçün müraciət edir. Hətta kök evi Qərbi Azərbaycan olanlar da siyahıya alınır. 1988-1991-ci illərdə deportasiya olunanlardan 100 min nəfər qeydiyyata alınıb. Həmçinin daha əvvəl deportasiya olunanların varislərindən də qeydiyyata alınanlar var".

"Qayıdış Konsepsiyası"nda qeyd edilib ki, Qərbi Azərbaycan İcması beynəlxalq missiyanın qayıdış olacaq ərazilərə yerləşdirilməsini zəruri hesab edir: "Ermənistan hökumətinin azərbaycanlı əhaliyə qarşı etnik əsaslarla genişmiqyaslı və sistematik zorakılıq törətmiş olması səbəbindən icma təhlükəsizlik məsələlərində bu dövlətə etibar etmir. Ona görə də müvafiq mandatla və Qərbi azərbaycanlıların etimad göstərdiyi ölkələrin qüvvələrindən ibarət beynəlxalq təhlükəsizlik missiyasının qayıdış olacaq ərazilərə yerləşdirilməsini zəruri hesab edir".

Bildirilib ki, beynəlxalq missiyanın səlahiyyəti və imkanları təhlükəsizlik vəziyyətindən asılı olacaq: "Təhdidlərin qiymətləndirilməsinin müvafiq informasiya toplama və təhlil imkanları tələb etməsini, icmada bu imkanların olmadığını nəzərə alaraq, icma bu məsələdə Azərbaycan Respublikası hökumətinin yardımına ümid edir. Missiya qayıdışdan əvvəl yerləşdirilməli, müvafiq əraziləri nəzarətə götürməli, mülki-hərbi əlaqə, polis və mülki idarəetmə səlahiyyətinə malik olmalı, icmanın zəruri hesab etdiyi müddətdə fəaliyyət göstərməlidir. İcma beynəlxalq təhlükəsizlik missiyasının mandatının formalaşdırılması və idarə edilməsi üzrə formatda maraqlı tərəf kimi təmsil olunmalıdır".

Həmçinin vurğulanıb ki, Qərbi Azərbaycan İcması qayıdış prosesini nizamlı və effektiv şəkildə həyata keçirmək məqsədilə müvafiq beynəlxalq icraçı tərəfdaş tapmaq üçün səy göstərəcək: "Bu tərəfdaşın BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının olmasına üstünlük veriləcək. İcma beynəlxalq icraçı tərəfdaş ilə birlikdə, tətbiq oluna bilən beynəlxalq standartlar əsasında, Azərbaycan hökuməti və Ermənistan hökuməti ilə təmaslar şəraitində qayıdışın detallı planını hazırlayacaq".

Diqqətə çatdırılıb ki, icma Azərbaycan və Qərbi azərbaycanlıların məskunlaşdığı digər dövlətlərin əhali reyestri xidmətlərinin yardımından istifadə edərək və müvafiq beynəlxalq metodologiya əsasında icma üzvlərinin siyahıya alınmasını həyata keçirəcək. Eyni zamanda bildirilib ki, repatriasiya etmiş azərbaycanlılar qayıtdıqdan sonra ilk dövrlər humanitar yardıma, sonra uzunmüddətli sosial və iqtisadi inkişaf üçün reinteqrasiya və reabilitasiya proqramına ehtiyac duyacaqlar. İcma bu sahədə müvafiq proqram həyata keçirmək üçün beynəlxalq qurumlar və donorların əsas tərəf-müqabili olmaqda qərarlıdır.

Əlavə olaraq bəyan edilib ki, azərbaycanlılara qarşı törədilmiş bütün hüquq pozuntuları kimi mülkiyyət hüququnun pozulmasının nəticələrinin aradan qaldırılmasına görə də Ermənistan hökuməti məsuliyyət daşıyır: "Ermənistan hökuməti azərbaycanlılara məxsus mülkiyyətin və icma torpaqlarının qaytarılmasını təmin etməli, mülkiyyətə vurulmuş zərərə və mülkiyyətdən istifadənin qarşısının alınmasına görə yaranmış itkilərə görə kompensasiya ödəməlidir. Ermənistan hökuməti azərbaycanlıların mülkiyyət hüquqlarının bərpasından irəli gələn bütün xərcləri ödəməli və digər lazımi tədbirləri görməlidir".

**Milli QHT Forumunun prezidenti Rauf Zeyni "Şərq"ə açıqlamasında bildirib ki, Qərbi Azərbaycan İcması uzun illərdir fəaliyyət göstərirdi. Ekspert vurğulayıb ki, sadəcə olaraq icmanın təşkilatçılıq strukturunun yenilənməsi istiqamətində mühüm addımlar atıldı:** "Azərbaycan Qaçqınlar Cəmiyyətinin ləğv edilərək Qərbi Azərbaycan İcması İctimai Birliyinin yaradılması, qurumun yenidən strukturlaşması, idarə heyətinin yenilənməsi, ayrıca şöbələrin təsis edilməsi vacib idi. Prezident İlham Əliyevin Qərbi Azərbaycan İcmasının bir qrup nümayəndəsi ilə görüşündə konseptual və proqram xarakterli çıxışı xüsusi əhəmiyyət kəsb edirdi. Müxtəlif tədbirlərdə dövlət başçısının "Biz İrəvana, Göyçəyə, Zəngəzura qayıdacağıq" çağırışlarının səslendirilməsi elə-belə məsələ deyil. Bu çağırışlar çox böyük bir prosesdən və irəliləyişdən xəbər verir. Prezidentin bununla bağlı çağırışları milyonlarla insanı əhatə edən Qərbi azərbaycanlıları yüksək səviyyədə ruhlandırdı, səfərbər etdi. Bu çağırış Qərbi Azərbaycan İcmasının üzərinə böyük məsuliyyət və vəzifələr qoyur. Eyni zamanda üreyi Vətənlə, yurdla döyünən hər bir ziyalının, hər bir vətəndaşımızın üzərinə öhdəlik qoyur. Qısa müddət ərzində daha böyük işlər görmək niyyətində və əzmindəyik. Bundan irəli gələrək də hər gün addım-addım irəliləyirik".

R.Zeyni vurğulayıb ki, icmanın fəaliyyəti bütün parametrlər üzrə, o cümlədən beynəlxalq hüquq müstəvisində təşkil olunmalıdır: "Bu istiqamətdə işlər gedir. Hamımız öz təkliflərimizi vermişik. Həm il ərzində, həm də son hədəfimizə nail olanadək "Qayıdış Konsepsiyası"nın icrası təmin olunacaq".

İsmayıl Qocayev



# Problem tək həyət evləri ilə bağlı deyil

## Yeni tikilmiş bina evlərinə də çıxarışlar verilmir

**Sənədsiz evlər problemi Milli Məclisin Aqrar siyasət komitəsinin iclasında müzakirə edilib. Deputatlar hesab edir ki, mövcud məsələnin həlli üçün bələdiyyə torpaqları təftiş olunmalıdır. Mövzu ilə bağlı "Şərq"ə danışan millət vəkili Azər Badamov isə deyib ki, uzun illərdir sənədsiz evlərlə bağlı məsələ problem olaraq qalmaqdadır.**

Bir neçə il əvvəl bu məsələnin həll olunması ilə bağlı ölkə başçısının tapşırığı da olub. Hətta bununla əlaqədar təftiş işlərinin aparılması üçün müvafiq dövlət qurumlarının nümayəndələrinin iştirakı ilə komissiya da yaradılmışdı. Pandemiyaya qədər işlər sürətlə gedirdi. Amma pandemiyanın gəlişi və canlı təmaslara məhdudiyyətlərin tətbiqi bu işin müəyyən müddətə dayandırılmasına səbəb oldu.

Artıq pandemiya ilə bağlı məhdudiyyətlərin aradan qaldırıldığını vurğulayan millət vəkili deyib ki, müvafiq komissiyanın işinin bərpa edilməsi üçün heç bir məhdudiyyət yoxdur: "Hesab edirəm ki, bu il də komissiya öz işinə yenidən başlayacaq və yarımçıq qalmış işi başa çatdıracaqdır. Evlərin uzun müddət sənədsiz qalmasının səbəbi odur ki, torpaqlar təyinatı üzrə deyil. Yəni fərdi həyət evləri, yaşayış massivləri tikiblər, amma onların təyinatı fərqlidir.

Buna görə də kənd təsərrüfatı torpaqlarda, kommunikasiyaların mühafizə zonalarında tikilən evlərin sənədləşdirilməsi problemi həllolunmaz problem olaraq qalmaqdadır. Hesab edirəm ki, sənədsiz evlərin inventarlaşdırılması məsələsi başa çatdırılmalı və təhlükəsiz ərazilərdə yerləşən evlərin sənədləşdirilməsi mexanizmi işlənib hazırlanmalıdır".

A.Badamov deyib ki, bələdiyyə torpaqlarının təftiş olunması vacibdir. "Buna ehtiyac var. Əgər həmin torpaqlar kənd təsərrüfatı üçün nəzərdə tutulubsa, niyə fərdi evlər tikilib? Burada məsuliyyətli şəxslər qanun qarşısında cavab verməlidir. Bundan başqa həmin torpaqlarda ev tikənlərin sənəd məsələləri həll olunmalıdır. Bu da minlərlə insanı əhatə edir. Amma qeyd etdiyim kimi, belə halların yaşanmasına məsul olan şəxslər cavab verməlidir".

**Əmlak məsələləri üzrə ekspert Elnur Fərzəliyev isə hesab edir ki, sözügedən evlərə çıxarışların verilməsi üçün birinci növbədə torpağın təyinatı dəyişməlidir. Yaşayış massivi kimi nəzərdə tutulmalı, daha sonra çıxarış verilməlidir:**

"Təbii ki, bu, özəlləşən zaman bütün əraziləri əhatə edə bilməz. Çox ərazilər var ki, orada tikinti aparmaq qadağandır. Amma tikilib. Qanunla baxsaq, bu ərazilərə sənəd verilə bilməz. Onlara gələcəkdə çıxarışlar verilərsə, yəqin ki, hansısa formada kompensasiya və yaxud köçürmə yolu ilə bu ərazilərdə yer dəyişikliyi olmalıdır".

**Ekspertin sözlərinə görə, Bakı, Xırdalan, Sumqayıt 3 ayrı şəhər olsa da, fərdi yaşayış evləri o qədər genişlənib ki, şəhərlər bir-birinə birləşib və burda da əksər ərazilərdə çıxarış yoxdur:** "Təbii ki, burada itirən tərəf dövlətin büdcəsidir. Çıxarışlar olsaydı vətəndaş əmlak, bələdiyyə vergisi verərdi".

Ekspert sonda qeydiyyat məsələsinə də toxunub və bildirib ki, bu gün qeydiyyatla bağlı yaşanan problemlər məhz çıxarışla əlaqəli məsələdir. Çıxarış olmadığı üçün insanlar qeydiyyata düşə bilmirlər. Bu məsələ tək həyət evləri ilə bağlı deyil. Yeni tikilmiş bina evlərinə də çıxarışlar verilmir. Vətəndaş illərlə ev alıb yaşayır, amma öz evinə qeydiyyata düşə bilmir".

Şəymən



# Gərginlik pik həddə yaxınlaşır

## Rusiya rəsmi İrəvana açıq şəkildə basqılar göstərəcək

**"Rusiya-Ermənistan münasibətlərinin gərginləşməsi pik həddə çatıb". Bunu "Şərq"ə politoloq İlqar Vəlizadə deyib. Onun sözlərinə görə, təxminən analoji vəziyyət 2018-ci ildə də müşahidə olunub:**

"O vaxt Nikol Paşinyan hakimiyyətə gələndə Rusiya tərəfi çox narahat idi. Rəsmi Moskva düşünürdü ki, keçmiş rejimin devrilməsi Rusiya-Ermənistan əlaqələrinə mənfi təsir göstərəcək. Bu barədə kəskin bəyanatlar görürdük. Bir qədər sonra həmin gərginlik Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) keçmiş Baş katibi Yuri Xaçaturovla bağlı olub.

İndi də demək olar ki, oxşar təlaş yenidən yaşanır. Lakin hazırda tamamilə fərqli forma alıb. Çünki Ermənistanın öz qərbpərəst siyasəti nəticəsində artıq əməli hərəkətlərə keçdiyi görünür. Regiona Avropa İttifaqının (Aİ) qüvvələrini gətirir. Onlar mülki missiya deyillər.

Çox güman ki, hər işdən başı çıxan və ya təhlükəsizlik məsələləri ilə məşğul olan mütəxəssislərdir. Missiya adı altında Ermənistana gəlirlər. Sayca təxminən 2 min nəfərə yaxın olan hərbi qruplaşmadır. Əlbəttə, Rusiya mövcud durumdan hiddətlənib. Şimal qonşumuzun qəzəbi davam edəcək. Ermənistana müəyyən təzyiqlər də olacaq. Hazırda rəsmi Moskvanın "başı" Ukraynaya qarışıb.

Ona görə də bir az Ermənistanın "üzərinə düşməkdə" tərəddüd edir. Amma hadisələr bu şəkildə inkişaf etsə, Rusiya rəsmi İrəvana açıq şəkildə basqılar göstərəcək. Beləliklə, ikitərəfli münasibətlərin daha da gərginləşməsinə səbəb olacaq.

> **Proseslər ikitərəfli münasibətlərin daha da gərginləşməsinə səbəb olacaq**

Əlbəttə, burada Rusiya amilinin mövcudluğu müddətində onların aktivləşməsini, daxili siyasi gərginliyin artmasını gözləyə bilərik. Nəticə etibarilə yeni siyasi böhran istisna deyil".

*Qeyd edək ki, Rusiya Xarici İşlər Nazirliyi (XİN) bəyanat yayıb. Rusiya XİN-i bildirib ki, Ermənistanda Aİ missiyasının yerləşdirilməsi mövcud ziddiyyətləri daha da gücləndirəcək: "Aİ nümayəndələrinin Ermənistanın sərhədə yaxın rayonlarında peyda olması yalnız regiona geosiyasi qarşıdurma gətirə və mövcud ziddiyyətləri daha da gücləndirə bilər".*

Sücayət Mehti

# Tanklar Ukraynanın taktiki uğurlarının açarı ola bilər

## Lakin onların işğal zonasının genişmiqyaslı azad edilməsi əməliyyatlarında həlledici xüsusiyyət qazanması problemlidir

**Ukrayna Prezidenti Volodimir Zelenski Rusiya rəhbəri Vladimir Putinlə görüşməkdə və onunla sülh danışıqlarında maraqlı deyil. Ukrayna lideri deyib ki, bu gün Putin onun üçün heç kimdir. Prezident qeyd edib ki, o, Rusiyada kimin qərar verdiyini anlamır: "Putin danışıqlarda iştirak edəcək şəxs deyil". Zelenski qeyd edib ki, ukraynalıların həyatını xilas etmək Putin rejiminin başlatdığı ədalətsiz müharibədə onun bir nömrəli prioritetidir: "Mən Rusiyada döyüşmək istəmirəm.**



Sadəcə istəyirəm ki, onlar müharibəni tez bir zamanda dayandırsınlar və ölkəmizi tezliklə tərk etsinlər. Sizə əminliklə deyə bilərəm ki, ərazimizi tərk etsələr, müharibə dayanacaq. Məsələ bununla bitəcək". Xatırladaq ki, ötən ilin oktyabrında Zelenski Rusiya Prezidenti Putinlə danışıqlar apara biləcəyini bəyan etmişdi.

ABŞ Prezidenti Co Bayden isə bildirib ki, Ukrayna Silahlı Qüvvələri əks-hücum əməliyyatlarına hazırlaşır: "Yaz yaxınlaşdıqca Ukrayna qüvvələri öz nəzarəti altında olan əraziləri müdafiə etmək və əlavə əks-hücumlara hazırlaşmaqla məşğuldur". O bildirib ki, ABŞ Ukraynanı öz ərazisini müdafiə edə bilməsi üçün silahla təmin etmək niyyətindədir. Bayden xüsusən də, Vaşinqtonun Kiyevə 31 "Abrams" tankı təhvil verəcəyini açıqlayıb. Yanvarın əvvəlində Ukrayna Müdafiə Nazirliyinin Baş Kəşfiyyat İdarəsinin rəisi Kirill Budanov bildirmişdi ki, Ukrayna Silahlı Qüvvələrinin bu yaz hücuma keçəcəyi gözlənilir. Mart ayında onun proqnozlarına görə, döyüşlər "ən qızğın" mərhələdə olacaq. Budanov xatırladıb ki, Ukraynanın məqsədi 1991-ci il sərhədlərinə qayıtmaqdır. Almaniyanın müdafiə naziri Boris Pistorius isə deyib ki, "Leopard" tanklarının Ukraynaya göndərilib-göndərilməməsi ilə bağlı həlli qərar verilməyib: "Bu istiqamətdə heç bir yenilik yoxdur. Biz öz qərarımızı hazırlayırıq və tezliklə açıqlayacağıq". O bildirib ki, "Leopard" tankları olan müttəfiqlər Ukrayna qüvvələrinə bu istiqamətdə təlimə başlaya bilərlər və Almaniya buna etiraz etmir: "Ukraynanı dəstəkləməli və Rusiya aqressiyasına qarşı biz öz həmrəyliyimizi göstərməliyik, bu çox vacibdir. Biz 2023-cü ilin yazı üçün Ukraynaya hərbi yardım paketini hazırlayırıq. İndiyə qədər Ukraynaya 3.3 milyard avro yardım etmişik. ABŞ və Britaniya ilə birgə biz Ukraynaya yardım edən əsas ölkələr arasındayıq".

**Siyasi şərhçi Aqşin Kərimov "Şərq"ə deyib ki, NATO Ukraynadakı müharibənin taleyini Rusiyanı iflic edən hala gətirməkdən ötrü Kiyevə silah tədarüklərində səhifələri çevirməyi qərara alır. Ekspert vurğulayıb ki, NATO Ukraynadakı münaqişəyə görə maksimal ehtiyatlı mövqedə duran Almaniyanı da müharibədə dolayı iştiraka dartmağı bacarır:** "Almaniyanın üzərində böyük basqılar var və bu təzyiqlərin başında ABŞ ilə Böyük Britaniyanın nəhəng maraqları dayanır.

Ona görə də Almaniya təhlükəsizlik qayğılarındakı dilemmalara son qoyub Ukraynaya "Leopard" tanklarını tədarük etməkdən başqa seçimə malik olmadığını göstərir. Almaniyanın Ukraynaya verəcəyi tanklar NATO-nun ümumi təhlükəsizlik sisteminin tələbləri ilə uyuşur. Almaniyanın tanklarının Ukraynanın döyüş potensialını artırmasını ABŞ-nin Kiyevə verəcəyi "Abrams" tankları tamamlayacaq. Bununla belə prosedur əmmalarından dolayı Ukrayna həle bir neçə ay Rusiyanın davamlı zərbələrinə tab gətirməyi bacarmalıdır. Texniki prosedurlar Ukraynaya tankların gətirilməsini bir neçə ay gecikdirir, buna görə də Rusiya hərbi əməliyyatlar planında maksimal ideallarını gücləndirəcək. Yəni Rusiya Ukraynadakı işğal zonasını genişləndirməkdən ötrü hücum və müdafiə cəbhəsini gücləndirəcək. Bununla da, Kiyevin balansına ən müasir tanklar keçəcəyi təqdirdə belə, onların döyüşlərdəki qabiliyyətinin çox yerə paylanmasını təmin etmək istəyir. Nəticədə Qərbin müasir tanklarını zərərsizləşdirməyin yollarını aramaq üçün vaxt qazanmağı hədəfləyir".

**Analitik diqqətə çatdırıb ki, Qərbin Ukraynanı yeni tanklarla təchiz etmək öhdəliyini üzərinə götürməsindən sonra Kremlin artan narahatlıqlarını Almaniyanı hədələmək müşayiət edir:** "Rusiyanın Almaniyadakı səfiri Sergey Neçayev deyib ki, Almaniyanın qərarı İkinci Dünya müharibəsinin nəticələri ilə bağlı tarixi öhdəliklərdən imtinadır və bu, münaqişəni yeni səviyyəyə qaldırır. Rusiyanın Almaniya üçün hərbi təhdid yaratmaq ehtimalı zəifdir. Çünki Almaniya NATO-nun orqanıdır. Moskvanın bu orqanı hərbi cəhətdən zədələmək və ya sıradan çıxarmaq qərarı ona baha başa gələr. Buna görə də səfirin açıqlaması yalnız diplomatik hədədir və ən pis halda enerji ixracı ilə bağlı sərt qərarları özündə ehtiva edə bilər. Rusiya Qərbdən Ukraynaya yeni tankların transferinə əngəl yaratmaq üçün tədə ritorikasını davam etdirə və yenidən "nüvə silahı ataram" şantajına keçə bilər. Ancaq NATO münaqişə tərəfi deyil, müharibənin taktiki uclarında Rusiya və Ukrayna dayanır, bu baxımdan iki ölkənin döyüş meydanında daha çox təhlükə altına düşmək riskləri artır".

A.Kərimova görə, NATO da, Rusiya da Ukraynanı özlərinin təhlükəsizliyi üçün "qırmızı xətt" kimi gördüklərindən müharibə zonasında fərq yaratmaq üçün potensiallarını nümayiş etdirəcəklər: "NATO Ukraynaya tədarükləri müharibənin fazalarına uyğun şəkildə nizamlayır. Görünür ki, hələ də Kiyevə qırıcıların verilməsinin vaxtı çatmayıb. Tanklar Ukraynanın taktiki uğurlarının açarı ola bilər. Lakin onların işğal zonasının genişmiqyaslı azad edilməsi əməliyyatlarında həlledici xüsusiyyət qazanması problemlidir. Rusiya bu vaxtın yetişməməsi üçün əlindən gələni edəcək. NATO isə Ukraynanın balansındakı silahlarla əks-hücum əməliyyatlarında uğurlar qazanılmasına çalışacaq. Müharibənin taleyi döyüş meydanındakı mövqelərin hansı yerdə dayanması ilə müəyyən ediləcək. Ona görə də hazırda nəticənin konkret necə olacağını proqnozlaşdırmaq çətindir".

İsmayıl Qocayev

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi;**

# Biz tolerant mühitimizlə dünyada sayılıb-seçilmişik

## Multikultural dəyərlərimizi təkcə sözümüzlə deyil, əməlimizlə də mütəmadi təsdiq etmişik



**Avropa Şurası Parlament Assambleyasının qarşısında Holokost qurbanlarının xatirəsinə həsr edilmiş tədbirdə çıxış edən Frankfurtun yəhudi icmasının ravvini və Almaniyanın Ortodoks Ravvinlər Konfransının prezidenti Aviçay Apel Azərbaycanla bağlı çıxış edib. Ravvin ölkəmizdəki tolerantlıqdan, multikultural dəyərlərdən ağızdolusu danışıb. Məlumdur ki, 2022-ci ilin oktyabrından hər il yanvarın 27-nin Avropa Şurasında Holokost xatirəsi günü kimi anılması barədə qərar qəbul olunub.**

Bununla bağlı Azərbaycan Xarici İşlər Nazirliyi də bəyanat yayıb. Həmçinin digər qurumlarımızda yaydıqları açıqlamalarda yəhudi xalqına qarşı soyqırımı qınayıb. Bunları nəzərə alan Ravvin Aviçay Apel qeyd edib ki, Azərbaycan dünyada yəhudilərin repressiyaya uğramadığı yeganə ölkədir. O vurğulayıb ki, yəhudilər uzun əsrlərdir əhalisinin əksəriyyəti müsəlman olan bu ölkədə mehriban ailə kimi yaşayırlar: "Bu yaxınlarda Azərbaycanın İsraildə səfirliyi açıldı. Bu, bir çox ölkələrə ən yaxşı nümunə olacaq".

Həqiqətən, əsrlər boyu müxtəlif konfessiyaların nümayəndələri Azərbaycan ərazisində yanaşı yaşayıblar. Mühüm geostrateji mövqeyə malik ölkəmiz din və dini cərəyanların yayıldığı ərazi olub. Azərbaycanın tarixi ərazisində şamanlıq, zərdüştilik (atəşpərəstlik), daha sonralar isə yəhudi dini, xristianlıq və islam yayılıb. Tarixən Azərbaycan ərazisində yaşayan etnik və dini icmalar arasında sıx münasibətlər formalaşıb, heç bir milli, irqi və dini ayrı-seçkilik mövcud olmayıb. Bu sahədə Azərbaycan unikal təcrübəyə malikdir. Bu təcrübəni xalqımız hələ "multikulturalizm" sözünün yaranmasından öncə, əsrlər boyu toplayıb və zənginləşdirib. Təsadüfi deyil ki, Azərbaycana müxtəlif illərdə səfər edən rəsmi şəxslər ölkədə hökm sürən dini tolerantlığın yüksək səviyyədə olduğunu qeyd ediblər. Respublikamızda mövcud olan dinlərarası münasibətlərin və dözümlülüyün dünyanın digər ölkələri üçün yaxşı nümunə ola biləcəyini vurğulayıblar. Azərbaycanda hökm sürən tolerantlığın spesifik xüsusiyyətini müxtəlif dini konfessiyaların nümayəndələrinin birbirinə qarşı və dövlətin onlara ayrı-ayrılıqda və bütövlükdə olan münasibəti təşkil edir. Azərbaycan dövləti sadəcə ölkə daxilində deyil, xarici ölkələrdə, o cümlədən qonşu respublikalarda yaşayan minlərlə soydaşımızın da dini ibadətlərini sərbəst icra etməsi üçün qayğısını əsirgəmir. Qonşu ölkələrdə də multikultural dəyərlərin, dini tolerantlığın inkişafı üçün səylər göstərir. Birgəyaşayışın, dini dözümlülüyün, sülhün qarantı olan multikulturalizm Azərbaycanda qədim köklərə malikdir. Milli dəyərlərimizlə həmahəng olan tolerantlıq bu gün digər xalq və millətlər, müxtəlif dövlətlər üçün nümunəyə çevrilib. Başqasının mədəniyyətinə, dünyagörüşünə, dini inancına hörmət etmək, anlayış göstərmək yüksək insani keyfiyyətdir. Bu həm də öz dəyərlərini tanıtmağın, təbliğ etməyin bir yoludur. Tolerantlıq artıq sadəcə müxtəlif xalqlar arasında münasibətlərin tənzimlənməsi deyil, dövlətlər səviyyəsində xüsusi siyasi kurs kimi tətbiq edilən bəşəri bir dəyərə çevrilib. Tarixi mövqedən yanaşdıqda, mayaraq bütün insanların bir-biri ilə ünsiyyəti və dövlətin onlara münasibəti nümunəvidir. "Mən buradakı tolerantlığın səviyyəsindən məmnunam. Azərbaycanda hər kəs istədiyi dinə etiqad edir, istədiyi kimi ibadət edə bilir". Ümummilli Lider Heydər Əliyevin layiqli davamçısı Prezident İlham Əliyev mütəmadi olaraq dini icmaların liderləri ilə görüşür, onların ehtiyacı, problemləri ilə yaxından maraqlanır. Azərbaycanda milli azlıqların ictimai həyatın bütün sahələrinə inteqrasiyasına, onların dini əqidə azadlığının təminatına, öz mədəniyyət və dillərini inkişaf etdirmələrinə hər cür şərait yaradılır. Azərbaycandakı nadir dindövlət münasibətləri modeli daim dünyanın aparıcı dövlətlərinin nümayəndələri tərəfindən yüksək qiymətləndirilir. Hətta onlar çıxışlarında bildirirlər ki, Azərbaycanda dinlər arasında tolerantlıq münasibətləri bütün Avropa ölkələri üçün pozitiv bir misal ola bilər. Bu gün dünyada baş verən hadisələr dini inancların təcavüzə məruz qalması, milli və etnik dözümsüzlüyün təşviqi, insanların minilliklər boyu hörmət etdiyi dəyərlərin tapdalanması ilə müşayiət olunan balanslaşdırılmamış, neqativ və birtərəfli məlumatlar bəşəriyyət üçün təhlükə mənbəyinə çevrilib. Avropa və Amerikada islam əleyhinə kampaniyaların geniş işıqlandırılması, digər bölgələrdə baş verən proseslər əksər insanlar arasında ciddi narahatlığa çevrilməkdədir.

tolerantlıq anlayışının əvvəllər daha çox qarşılıqlı münasibətlərdə ehtiva olunduğunu, indi isə xüsusi qanunlarla tənzimləndiyini, müxtəlif təşkilatlar və qurumlar tərəfindən qəbul olunan sənədlərdə vacib müddəa kimi öz əksini tapdığını görərik. Qeyd edək ki, Azərbaycanda müstəqilliyin bərpasından sonra Ulu Öndər Heydər Əliyev respublikamızda yaşayan çoxsaylı etnik qruplara və azsaylı xalqlara xüsusi diqqət göstərib. Bunun bariz nümunəsidir ki, "Yəhudilər Azərbaycanda" kitabı hazırlanıb, 2001-ci ilin aprel ayında Azərbaycan Milli Elmlər Akademiyasında "Qafqazın dağ yəhudiləri" mövzusunda beynəlxalq seminar keçirilib. Yəhudi millətindən olan tanınmış şəxslərin yaşadıqları binalarda xatirə lövhələri qoyulub saxlanıb. Respublikamızda dinlərarası dialoq və əməkdaşlıq sahəsində əldə olunmuş təcrübə xarici ölkələr tərəfindən yüksək qiymətləndirilir. Roma patriarxı I Varfolomey 2003-cü ilin aprel ayında ölkəmizə iki günlük səfəri zamanı əminliklə qeyd etmişdi ki, Azərbaycanda dinindən, dilindən, millətindən asılı ol-

**İlahiyyatçı-alim Hacı Atif İsmayılov "Şərq"ə açıqlamasında vurğulayıb ki, Azərbaycan xalqı daim yüksək etibar və etimad göstərilən xalqlardandır. Ekspert vurğulayıb ki, Azərbaycanda dinindən, millətindən, irqindən asılı olmadan bütün xalqlar daim mehriban münasibətdə olublar:** "Dini və irqi mənsubiyyətləri fərqli olan millətlər əsrlər boyu Azərbaycanda təhlükəsiz, rahat, sərbəst həyat sürüblər. Azərbaycan dövləti və xalqı bütün insanlıq əleyhinə törədilmiş cinayətləri, soyqırımları qətiyyətlə rədd edib, pisləyib. Dünyanın harasında yaşamasından, dinindən, milliyyətindən asılı olmadan insanların öldürülməsinə "yox" deyib. Ona görə də multikultural və eyni zamanda tolerant mühitimizlə dünyada sayılıb-seçilmişik. Ölkəmiz dünyanın bir çox dövləti üçün real nümunə təşkil edib. Tolerantlığı, multikultural dəyərlərimizi təkcə sözümüzlə deyil, əməlimizlə də mütəmadi təsdiq etmişik. Bunun bariz nümunəsi odur ki, Azərbaycanda fərqli dinlərin, ayrı-ayrı millətlərin nümayəndələri uzun illərdir təhlükəsiz, heç nədən ehtiyat etmədən, narahatlıq duymadan ömür sürüblər. Sivil şəkildə öz həyatlarını yaşayıblar, ibadətlərini icra ediblər. Məhz Azərbaycan mühitində ayrı-ayrı dinlərin nümayəndələri birbirinə hörmət göstərir, sevgi və sayğı çərçivəsində hərəkət edirlər. Müxtəlif dinlərin, hətta fərqli məzhəblərin təmsilçiləri belə qarşıdurma yaşamadan ibadətlərini, ayinlərini icra edirlər. Bu da qardaşlıq simvolunun bariz nümunəsidir".

**İlahiyyatçı bildirib ki, dinimizin bizə tövsiyyəsi odur ki, hər bir şəxs dininə, milli mənsubiyyətinə görə deyil, ilk növbədə insanlığına, bəşəri xüsusiyyətlərinə görə dəyərləndirilsin:** "Azərbaycan xalqı dinimizin buyurduğu tövsiyəyə gözəl şəkildə əməl edərək multikultural dəyərlər sistemini formalaşdırır. O baxımdan dünyanın bir çox ölkəsində baş verən dini qarşıdurmalar, islamafobiyanın genişlənməsi, radikalizmin və antisemitizmin artması fonunda Azərbaycanda müşahidə olunan tolerant mühit çoxlarını yaxşı mənada heyrətləndirir. Ölkəmizdəki multikulturalizm çoxsaylı əcnəbi din xadimləri tərəfindən dəfələrlə dilə gətirilib, yüksək qiymətləndirilib. Bunlar çox önəmlidir, çünki məhz tolerantlıq mühiti insanları sülhə, vəhdətə, əmin-amanlığa sövq edir. Biz də din xadimi kimi bu istiqamətdə əlimizdən gələni etməyə çalışırıq".

**İsmayıl Qocayev**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# Qripə qarşı ən yaxşı üsul vaksinasiyadır

## Risk qrupuna 6 aylıqdan 5 yaşa qədər uşaqlar və 50 yaşdan yuxarı şəxslər daxildir



**"Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi"də (TƏBİB) qurumun rəhbər işçiləri və əməkdaşları qripə qarşı peyvənd olunublar.**

TƏBİB-dən "Şərq"ə bildirilib ki, influenza el arasında qrip olaraq tanınan xəstəlikdir. Xəstəlik özünü qızdırma, burun axması, baş və boğaz ağrıları, yorğunluq, quru öskürək kimi simptomlarla büruzə verir və adətən simptomatik müalicə olunur.

İnfluenza virusuna qarşı effektivliyi sübuta yetirilmiş vaksinlər mövcuddur və ildə bir dəfə peyvənd olmaqla yüksək risk qrupuna daxil olan şəxslərdə ağırlaşma və ölüm hallarının qarşısını almaq mümkündür. Hazırda TƏBİB-in tabeliyindəki dövlət tibb müəssisələrində influenza virusuna (qrip) qarşı vaksinasiya aparılır. Vaksin vurdurmaq istəyən şəxslər vaksin üçün qeydiyyatda olduqları TƏBİB-in tabeliyindəki dövlət tibb müəssisələrinə müraciət edə bilərlər.

Ötən ilin dekabr ayının 15-dən etibarən ölkə üzrə TƏBİB-in tabeliyindəki tibb müəssisələrində 20 701 nəfər qrip xəstəliyinə qarşı vaksin olunub.

Səhiyyə Nazirliyinin mütəxəssis-ekspertı, həkim-infeksionist Vasif Əliyev isə hesab edir ki, qrip epidemiyaları zamanı insanların qripə yoluxmasının qarşısını almaq üçün vaksinasiya ən səmərəli üsullardan biridir. İnfeksionistin sözlərinə görə, risk qrupuna 6 aylıqdan 5 yaşa qədər olan uşaqlar və 50 yaşdan yuxarı şəxslər daxildir: "Bundan əlavə revmotoloji xəstəliklər səbəbindən dərman qəbul edən, onkoloji xəstəliyi olanlar, hamilələr, orqan transplantasiyası olunmuş insanlarda koronavirus, qrip və bu kimi xəstəliklər ağır keçir. Risk qrupundan olan insanlar ilk olaraq virusdan qorunmalıdır. Qapalı məkanlara az-az getmək lazımdır. İkincisi, virus insan bədəninə təmas edərsə, risk qrupunda olan insanlar öncədən peyvənd olunmalıdır. Peyvənd hər il oktyabr ayından başlayaraq, fevral ayı daxil olmaqla peyvənd oluna bilərlər. Səhiyyə Nazirliyi tərəfindən ölkəyə (İİV 4) inaktiv qrip peyvəndi gətirilərək bütün poliklinikalara paylanılıb. Hər kəs ödənişsiz peyvənd ola bilər. Hamilə qadınlar da rahatlıqla bu peyvəndi vurdura bilərlər, peyvəndin heç bir fəsadı yoxdur. Ancaq allergiya keçmişi olan insanlar bu peyvəndi vurdurmamalıdırlar. Yüngül allergiyası olanlar isə peyvəndi xəstəxanada nəzarət altında vurdurmalıdır".

**Həkim-infeksionist Mərdan Əliyev də "Şərq"ə açıqlamasında qrip peyvəndinin vurulmasının məsləhətli olduğunu deyib:** "Xüsusən tibb işçiləri və əhalinin aktiv təbəqəsinin peyvənd olunması vacibdir. Qrip xəstəliyinə kimsə dırnaqarası baxmasın. Qrip ən ağır keçirilən xəstəliklərdəndir. Koronavirus infeksiyası ilə qripin üst-üstə düşməsi heç arzuolunan deyil. Bu, xəstənin daha da ağırlaşmasına və çətin sağalmasına səbəb ola bilər.

Düzdür, qrip peyvəndi rutin peyvəndlər sırasına daxil deyil. Məsələn, körpələrə hansı peyvəndlərin vurulmalı olduğu milli immunizasiya proqramı ilə müəyyənləşir. Hansı ayda hansı peyvənd vurulur, dəqiqliklə göstərilir. Deyək ki, hepatit A, su çiçəyi, qızılca, göy öskürək, məxmərək, meningit, difteriya, tetanus, pnevmokok pnevmaniyası... bunlar vacib peyvəndlərdir. Amma təhlükələri minimuma endirmək baxımından körpələrə 6 aydan sonra qrip peyvəndi də vurula bilər. Ümumiyyətlə, kim istəyirsə, qrip peyvəndi vurdura bilər. Bu, könüllüdür və bir həkim olaraq insanlara virusdan qorunmaq üçün peyvənd olunmağı məsləhət görürəm".

**Şəymən**

# Kəndli əkin sahəsini suvara bilmir

**"Çalışmaq lazımdır ki, elektron sistemlər üzərindən vasitəçilər torpaqları götürüb kəndliyə verməsinlər, kəndli torpaqları birbaşa götürsün. Kəndlinin elektron informasiya sistemindən çox başı çıxa bilmir". Bunu Milli Məclisin Aqrar siyasət komitəsinin iclasında Müşfiq Cəfərov bildirib. Müşfiq Cəfərov deyib ki, belə halların olmaması üçün Dövlət Aqrar İnkişaf Mərkəzləri effektiv sistem qurmalıdırlar:**



*Kənd təsərrüfatı məhsullarının yetişdirilməsinə elmi yanaşma olmadığından fermerlər itkiylə üzləşir*

"Onların elektron bazalarında fermerlər barədə kifayət qədər məlumatlar var". Qeyd edək ki, Milli Məclisin Aqrar siyasət komitəsinin dünən keçirilən iclasında "Torpaq icarəsi haqqında" qanuna təklif edilən dəyişikliklər müzakirəyə çıxarılıb. Dəyişikliklər qəbul ediləcəyi təqdirdə dövlət mülkiyyətində olan kənd təsərrüfatı təyinatlı torpaqların icarəyə verilməsinin xüsusiyyətləri dəyişəcək. Layihəyə əsasən, dövlət mülkiyyətində olan kənd təsərrüfatı təyinatlı torpaq sahəsini icarəyə götürmək istəyən şəxs müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana informasiya sistemi vasitəsilə elektron ərizə ilə müraciət edəcək. Ərizədə torpaq sahəsindən istifadənin məqsədi və müddəti göstərilməlidir. Layihə dövlət mülkiyyətində olan kənd təsərrüfatı təyinatlı torpaq sahələrinin icarəyə verilməsi mexanizminin təkmilləşdirilməsi və müasir tələblərə uyğunlaşdırılması, habelə vətəndaş-məmur ünsiyyətinin minimuma endirilməsi və prosesin şəffaflığının artırılması baxımından qeyd edilən fəaliyyətin elektronlaşdırılmasını nəzərdə tutur. Layihə icarəçinin vəzifələrini də artırır. İcarəçinin vəzifələri sırasına icarəyə götürülmüş dövlət mülkiyyətində olan kənd təsərrüfatı təyinatlı torpaq sahələrinin istifadəsi, keyfiyyətinin yaxşılaşdırılması, qorunması və mühafizəsi barədə görülən işlərə dair informasiya sisteminə məlumat təqdim etmək də əlavə edilir.

**Qanuna təklif edilən dəyişiklik qəbul olunarsa, bundan kəndli, fermer necə faydalanacaq? İqtisadçı Əkrəm Həsənov "Şərq"ə açıqlamasında bildirdi ki, elektron informasiya sistemi torpaqların vasitəçilər üzərindən kəndliyə verilməsində bəlkə də ən son səbəbdir:**

- Hazırkı dönəmdə kiminsə elektron sistemə daxil ola bilməməsinin, elektron ərizə üsulundan istifadə edə bilməməsinin böyük problem kimi təqdim olunması yanlışdır. Razıyam, tutalım, kəndli bilmir, bacarmır bu sistemlə işləməyi. Övladı ki bacarır. İndiki gənclər, maşallah, günün 24 saatını internetdə, sosial şəbəkələrdə, müxtəlif platformalarda videoları, paylaşımları izləməklə məşğuldurlar. Məncə, ailəsi, valideynləri aqrar sahədə çalışan, gəlirləri bu sahədən asılı olanlar üçün Kənd Təsərrüfatı Nazirliyinin, Aqrar İnkişaf Mərkəzinin elektron saytına daxil olub, lazımlı məlumatları əldə etmək çətin olmamalıdır. Onlar bunda maraqlı olmalıdırlar. Digər tərəfdən nazirlik özü də bu sahədə maarifləndirmə işlərinin aparılmasında maraqlı olmalıdır. Elektron müraciətin sadə forması kəndliyə həmin elektron sistemdə addım-addım, mərhələ-mərhələ izah edilməlidir. Bu işlərin görülməsinə ehtiyac var. Yoxsa ki, kəndli elektron sistemə daxil ola bilmir deyə, onun əvəzinə başqası vasitəçilik edir, torpağı icarəyə götürüb fermerə "satır", kimi səbəblər göstərmək, qeyri-ciddi səslənir.

**Ə.Həsənov qeyd etdi ki, kəndliyə ilk növbədə icarəyə götürdüyü torpaq sahəsini əkib-becərmək, məhsul əldə etmək və ondan qazanc əldə etmək üçün şərait yaradılmalıdır:**

- Kəndli əkin sahəsini heç suvara bilmir. Kənd təsərrüfatı məhsullarının yetişdirilməsinə elmi yanaşma olmadığından, planlama düzgün aparılmadığından fermerlər itkiylə üzləşir. Normal şəkildə fermerə dəstək proqramları icra olunmalıdır. Fermer bilməlidir, əmin olmalıdır ki, zərərə düşərsə, bu zərər dövlət tərəfindən qarşılanacaq. Fermerin nə əkəcəyi, hansı mövsümdə hansı məhsulun əkilməsinə üstünlük verməli olduğu elmi proqram əsasında tərtib edilməlidir. Bunun suvarması var, zərərvericilərə qarşı dərmanları, texnikası var. Fermerlər bu xərcləri qarşılaya bilmir. Fermer yetişdirdiyi məhsulu bazara çıxarıb sata bilmir, biz elektron sistemdən danışırıq. Kənd təsərrüfatında, ölkənin kənd təsərrüfatı məhsulları ilə təminatında hələ də idxaldan böyük ölçüdə asılılığının davam etməsinin əsas səbəbi məmurların fermerlərə kömək etməkdə maraqlı olmamasıdır. Vəziyyət bilirsiz necədi? İmkanlı birisi gəlir böyük ölçüdə torpaqları icarəyə götürür, məmura da təklif edir ki, başqa birisinə torpaq sahəsi verməyə ehtiyac yoxdur, gəl, ikimizin arasında bölüşək: mən torpağı əkdirib becərdəcəm, sənin də payın olacaq. Başqasına su verməyə də ehtiyac yoxdur. Suyu mənim əkin sahələrimə yönəldək. Bununla da iş bitir. Başqa fermer də qoy elektron sistemlə "əlləşsin". Bu cür vəziyyətin yaranmasının səbəbi isə qeyri-şəffaflıqdır. Kənd Təsərrüfatı Nazirliyi nə vaxt hesabatla çıxış edib, nə qədər torpaq sahələrinin, hansı məqsədlərlə, kimlərə icarəyə verildiyini açıqlayıb?!

**Məlahət Rzayeva**

# Süd məhsullarının ciddi bahalaşması gözlənilmir

## Ölkəyə ən çox idxal olunan süd məhsulu yağdır, bu baxımdan yağın baha satılması anlaşılandır



**Azərbaycanda bir sıra süd məhsullarının qiymətlərində bahalaşma baş verib. Belə ki, qatılaşdırılmış südün qiyməti bir müddət bundan öncə 3-4 manat arası təşkil edirdisə, hazırda onun qiyməti 9 manata qədər qalxıb.**

Süni qiymət artımı alıcılar tərəfindən birmənalı qarşılanmayıb.

Antiinhisar və İstehlak Bazarına Nəzarəti Dövlət Xidmətindən bildirilib ki, xidmət tərəfindən hazırda qatılaşdırılmış süd məhsullarının, o cümlədən digər süd məhsullarının satışı bazarında hər hansı bir bazara giriş maneəsi və ya rəqabəti məhdudlaşdıran digər hallar müşahidə edilmir.

Qeyd edilib ki, həmin məhsulun qiymətindəki artım məhsulun maya dəyərinin elementlərindəki artımdan, həmçinin tələb-təklif əsaslı qiymət dəyişikliklərindən qaynaqlana bilər:

- Rəqabət məhdudiyyətləri olmayan bazarlarda qiymətlər tələb və təklifin dinamikası və ona təsir göstərən digər iqtisadi səbəblərə görə formalaşır.

Hazırda istehlak bazarında qatılaşdırılmış süd məhsulları da daxil olmaqla, ümumilikdə süd məhsulları bazarında rəqabəti məhdudlaşdıran razılaşmalar, sahəvi inhisarçılıq və ya inhisarçılığın digər formaları kimi rəqabəti məhdudlaşdıran hallar mövcud deyil.
Son dövrlər sosial şəbəkələrdə müzakirə olunan idxal olunan qatılaşdırılmış süd məhsulunun qiymətindəki sürətli artım həmin bazarın rəqabətlilik vəziyyətindən qaynaqlanmır. Məhsulun qiymətinin artmasına səbəb kimi idxal olunduğu ölkədəki qiymətindəki artım (alış qiyməti), məhsula olan tələbdəki artım və ya satıcının kommersiya qərarı ola bilər. Qeyd edilən məhsulların qiymətləri qanunvericiliyin tələblərinə əməl edilməklə təsərrüfat subyektləri tərəfindən sərbəst müəyyən edilə bilər.

İstehlak bazarında sahibkarlar tərəfindən istehlakçılara müxtəlif qiymət və şərtlərlə mal və xidmətlər təklif olunur. Mövcud qanunvericiliyə əsasən, istehlakçı onların arasından qiyməti və istehlak xassələri daha uyğun olan malı və ya xidməti öz ehtiyacına və zövqünə görə sərbəst şəkildə seçərək ala bilər.

**İqtisadçı-ekspert Cəfər İbrahimli isə hazırda ölkədə süd məhsullarının qiymətində ciddi bir artım olmadığını deyib. Onun sözlərinə görə, süd məhsulları ilə bağlı qiymətlərin əsas ölçü vahidi ölkədəki süd fermaları, yəni intensiv təsərrüfatların istehsal etdiyi süddür:** "Dediyim kimi, burada da ciddi bir qiymət artımı yoxdur. Son 5-6 ayda südün qiyməti 0,80 qəpik civarındadır. Düzdür, bu qiymətlər fermerləri qane etmir. Yem qiymətləri bahalaşdığına görə süd istehsal edən fermerlər zərərlə işlədiklərini iddia edirlər. Onların aspektindən yanaşsaq, bu iddialar reallığı əks etdirir".

Süd və süd məhsullarının emalı və mağazalarda satış qiymətlərinə gəldikdə isə iqtisadçı deyib ki, bu məhsulların da maya dəyərinin əsasında süd ciddi rol oynadığından qatılaşdırılmış südün qəfildən 3 manatdan 9 manata qalxmasının heç bir iqtisadi izahı yoxdur. Onu da deyim ki, xaricdən idxal olunan bəzi süd məhsullarının qiyməti brendinə görə dəyişə bilir. Ola bilər ki, sözügedən məhsul da xaricdə istehsal olunub və digər məhsullardan daha keyfiyyətli olduğu üçün o qiymətə satılsın. Çünki mağazalarda satışda olan süd məhsullarının böyük əksəriyyəti məhz ölkədə istehsal olunur. Bu sahədə idxal payı nisbətən aşağıdır. Və süd bahalaşmadığı üçün ölkədə istehsal olunan qatılaşdırılmış südün qiyməti bu qədər bahalaşa bilməz. Ölkəyə ən çox idxal olunan süd məhsulu yağdır. Bu baxımdan yağın baha satılması anlaşılandır".

**Şəymən Bayramova**

# Dünya təcrübəsindən yararlanmağımızın vaxtı çatıb

## "İcra orqanlarının bəzi səlahiyyətləri bələdiyyələrə verilə bilər"



**"Naxçıvan Muxtar Respublikasına yeni təsis edilən xüsusi nümayəndəlik sistemi və dərhal da təyin edilən nümayəndə hər bir ölkə vətəndaşında ölkəmizdə regional idarəetməyə keçidin sürətləndiyi təəssüratını yaratmış oldu. Bundan əvvəl isə sistem mənfur erməni işğalından azad edilmiş ərazilərdə yaradılmışdı.**

Nəzərə alaq ki, az müddət ərzində Qarabağ, Şərqi Zəngəzur və Şuşada yaradılan üç təsisat şəffaf fəaliyyəti ilə özünü doğrultmuş oldu. Belə bir təsisatın digər regionlarda da yaradılacağı gözlənilən idi".

**Bunu "Şərq"ə açıqlamasında "Bələdiyyələrin Fəaliyyətinin Təbliği" İctimai Birliyinin sədri Vüqar Tofiqli deyib.**

V.Tofiqli bildirib ki, hazırda yerli icra strukturlarında çalışanların əsas vəzifəsi konkret olaraq vətəndaş qəbulları keçirməklə vaxt qazanmaq və bələdiyyələri öz təsir dairəsində saxlamağa çalışmaqdır: "Regional idarəetməyə keçid yerli icra hakimiyyəti orqanlarının yerli problemlərin həlli barəsində təsərrüfat fəaliyyətli bəzi funksiya və səlahiyyətlərinin də bələdiyyələrə verilmə ehtimalını artırıb. Dünya idarəetmə sistemində yerli idarəetmənin məhz bələdiyyələrə verilməsilə dövlətin üzərinə düşən məsuliyyət yükünü azaldır. Ölkə paytaxtlarının və iri mərkəz şəhərlərinin idarəetməsinin məhz seçkili orqana verilməsinin zəngin dünya təcrübəsi var. Həmin təcrübədən bizim də yararlanmağımızın vaxtı çatıb.

Regional idarəetməyə keçidlə bağlı bələdiyyələrə əlavə səlahiyyətin və ya hər hansı imtiyazın verilməsinə bələdiyyələrin hazır olması üçün ilk növbədə bələdiyyələrin maliyyə vəziyyətinin yaxşılaşdırılmasına çalışmalıdırlar.

Bununla yanaşı, bu istiqamətdə bələdiyyədən aldığımız maliyyə istiqamətlərini özlərinə qaytarmalıyıq.

Reklamla, avtodayanacaqla, avtomobillər üzrə əmlak vergisini bələdiyyələrə qaytarmalı, üstəlik, əlavə maliyyə üzrə səlahiyyətin verilməsi üçün irəli sürülən təklifləri müzakirəyə çıxarmaq lazımdır. Assosiasiyaların və bələdiyyələrin birləşdirilməsindən başlamış bələdiyyələrdə uçot sisteminin təmin edilməsinədək olan məsələlərin həllində hər kəs və hər bir qurum, xüsusən də mərkəzi icra orqanları öz sözünü deməli və töhfəsini verməlidir. Nəticədə regional idarəetməyə keçid prosesində bələdiyyələrin də üzərinə düşən məsuliyyət yükünü bir növ təmin etmiş olacağıq".

**Aygün Tahir**



# Əməkdar jurnalistin anası vəfat etdi

**Əməkdar jurnalist Ləman Ələşrəfqızına ağır itki üz verib.**

Onun anası vəfat edib.

"Bu gün sizin hər biriniz üçün yanvar günəşi doğub, mənim Günəşim batdı. Anam hər kəsdən çox sevdiyi oğlunun yanına getdi. Bircə il dözə bilmədi onsuz. Mənə - sonbeşiyinə rəhm etmədi. Məni duasız qoydu. Dünyam dağılıb, dostlar. Viran qalmışam", - deyə o, yazıb.

Onun qardaşı Fikrət Dadaşov 2022-ci ilin fevralında 60 yaşında koronavirusdan dünyasını dəyişib.

**P.S. "Şərq" qəzeti olaraq Ləman Ələşrəfqızına anasının vəfatı ilə bağlı dərin hüznlə başsağlığı veririk. Allah rəhmət eləsin!**

# Bakteriyalı kartoflar Azərbaycana buraxılmamalıdır

## Bu, kənd təsərrüfatı infrastrukturunda ciddi problemlər yarada bilər



**"Kartof məhsulunda karantin tətbiq edilən orqanizm vaxtaşırı müəyyən olunur. Bu, Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) çox mühüm cəhətlərindən biridir".**

Bunu "Şərq"ə Azad İstehlakçılar Birliyinin (AİB) sədri Eyyub Hüseynov deyib. Onun sözlərinə görə, məlum bakteriyaların insan üçün heç bir zərəri yoxdur: "Lakin kartof təsərrüfatı, əkinçiliyi üçün çox ciddi problemlər yarada bilər. Ona görə də AQTA partiya mallarının qarşısını alır. Əlbəttə, adıçəkilən agentlik belə bakteriyaların qarşısını almaq üçün beynəlxalq təşkilatların tövsiyələrini əsas tutur.

Təəssüf ki, bu məhsullar Azərbaycana gələndən sonra müəyyən edilir. Əslində böyük bizneslə məşğul olan insanlar öncədən həmin ixrac edən müəssisələrə gedib, monitorinqlər keçirir, mütəxəssislər cəlb edirlər.

İcazələr aldıqdan sonra məhsulları ölkəyə gətirirlər. Belə bakteriyalı mallar Azərbaycana buraxılmamalıdır. Çünki kənd təsərrüfatı infrastrukturunda ciddi problemlər yarada bilər.

Yeni Zelandiya kimi ölkələr ətraf mühiti yüksək səviyyədə qoruyurlar. Bakteriyalara qarşı ciddi mübarizə aparırlar. Xalq əl-ələ verir. İctimai nəzarət mexanizmi mövcuddur. Yaxşı olar ki, Azərbaycanda da belə bir metod tətbiq edilsin".

*Qeyd edək ki, ərzaqlıq kartof məhsulunda karantin tətbiq edilən orqanizm aşkar olunub. Bu barədə Qida Təhlükəsizliyi Agentliyi (AQTA) məlumat verib.*

**Sücayət Mehti**

# İmtahan sessiyasının ləğvi yaxşı ideyadır

## Lakin məsələ onun nəylə əvəz ediləcəyidir

**Azərbaycan Dövlət İqtisad Universitetində imtahan sessiyalarının ləğvi gözlənilir. Universitetin rektoru Ədalət Muradov hesabat tədbirində çıxışı zamanı bildirib ki, əsas hədəfləri UNEC-də imtahan sessiyalarını mərhələli şəkildə ləğv etməkdir. "Bu təcrübə xaricdə var.**

Bunun bizim universitetlərdə tətbiqi barədə də düşünmək olar. Belə olan halda hər ay tələbəyə konkret bir layihə veriləcək və o layihə əsasında da tələbə qiymətləndiriləcək. Onda imtahana ehtiyac qalmayacaq", - rektor vurğulayıb. Rektor tədris prosesindəki yeniliklərdən də danışıb: "Ötən ilin sentyabrından UNEC-də 13 qeyri-ixtisas fənni yalnız distant şəkildə tədris olunur. "Flipped Education" modelinin tətbiqi ilə müəllim tələbələrə mühazirə keçmir. Mühazirəni onlayn formada tələbələrə göndərir. Tələbə 20 dəqiqə ərzində mühazirə ilə tanış olduqdan sonra başa düşmədiyi məqam varsa müəllimə bildirir, izah alır".



***I kurs tələbəsinin layihə üzərində işləməsi mümkün olmayacaq, olsa-olsa, yalnız IV kurs tələbələrinə təqdim edilə bilər***

**İqtisad Universitetində gözlənilən dəyişiklik tədris prosesinə, semestr imtahanlarına, ümumiyyətlə, tələbələrin keyfiyyətli təhsil almasına nə dərəcədə faydalı ola bilər?**

Təhsil Xidmətləri Araşdırma və Təhlil Mərkəzinin rəhbəri, fəlsəfə doktoru Kamran Əsədov "Şərq"ə açıqlamasında bu haqda danışdı:

- Ali təhsil müəssisələrində semestr imtahanlarının neqativ hallarla müşayiət olunduğu sirr deyil. Ali məktəblərdə rəhbərlikdə təmsil olunanlar arasında imtahanlara gəlir mənbəyi kimi baxanlar var. İmtahan sessiyasının ləğvi ideya olaraq yaxşı səslənir, lakin məsələ onun nəylə əvəz ediləcəyidir. UNEC rektoru semestr imtahanların hər ay tələbələrə tapşırılacaq layihələrlə əvəz ediləcəyini və qiymətləndirmənin layihənin icrası səviyyəsinə uyğun aparılacağını deyib. Hesab edirəm ki, bu, doğru seçim deyil. I kurs tələbəsinin layihə üzərində işləməsi mümkün olmayacaq. Çünki I kurs tələbəsi hələ bilmir layihə nədir, necə işlənir. Tutaq ki, iqtisadi mövzuda layihə tərtib edildi, üzərində işləmək üçün tələbəyə verildi. Bəs dilçilik, tarix fənni üzrə layihələr necə tərtib ediləcək? Elm və Təhsil Nazirliyində layihələr üzərində işləyə bilənlər heç yoxdu. Amma universitet bunu tələbələrdən tələb etməyi düşünür. Layihə ilə qiymətləndirmə, olsa-olsa, yalnız IV kurs tələbələrinə təqdim edilə bilər. Aşağı kurslarda isə bu, istənilən nəticəni verməyəcək. Nəzərə alsınlar ki, layihələrin qiymətləndirilməsi də vaxt aparan işdir. Layihə, hardasa yoxlama işinə bənzəyir. Yenə də subyektivlik özünü göstərə bilər, hansısa tələbənin layihəsi yaxşı qiymətləndirilər, hansınınsa zəif. Bu zaman tələbəyə yenidən layihə üzərində çalışmaq tapşırılacaq. Yenə də uzunçuluq, vaxt itkisi, tələbənin sıxışdırılması baş verəcək.

**K.Əsədov semestr imtahanlarının ləğvinin Azərbaycan Diplomatik Akademiyasında uğurla icra edildiyini xatırlatdı:**

- ADA-da semestr imtahanları çoxdan ləğv edilib. Tələbələrin qiymətləndirilməsi semestr ərzində dərsə davamiyyət, dərslərdə iştirak, dərsə hazırlıq, tapşırıqların həlli üzrə qiymətləndirilir və buna müvafiq də yekun qiymətləndirmə aparılır. Bu cür sadə, asan bir yolla tələbə qiymətləndirilir.

K.Əsədov bildirdi ki, semestr imtahanları köhnədənqalma metoddur və yenilənməsinə ehtiyac var:

- UNEC rəhbərliyi şəffaflığın təmininə çalışır və yeni format fikirləşir. Bu, anlaşılandır. Semestr imtahanları köhnədən qalan metoddur və əlbəttə, dəyişməlidir. Amma hər yenilik də effektli olmaya bilər. Mövcud təcrübələrə baxmaq və daha uyğun gələnini, müsbət nəticə əldə edilən formatlar tətbiq edilməlidir.

**Məlahət Rzayeva**

# Günahsız olduğu sübut olunarsa…

## Novella Cəfəroğlu: "Rəşad Dağlının həbsdən çıxmasını istəyərdim"





**"Rəşad Dağlı sənətkardı, meyxanaçıdır. Onun həmkarları, digər sənət ustaları Mədəniyyət Nazirliyinin vasitəsilə Əfv Komissiyasına məktubla müraciət etməlidirlər".**

Bu barədə "Şərq"ə hüquq müdafəçisi Novella Cəfəroğlu danışıb.

Hüquq müdafiəçisi ancaq tutulan jurnalist, bloqer və siyasi fəalların əfv edilməsi ilə məşğul olduğunu bildirib: "20 ildən çoxdur həbsxanada yatan qaranquşlar, partizanlar, omonçuların əfv olunması üçün müraciət etmişik. Çünki həmin insanlar müharibə iştirakçısı olublar. 20 il həbsdə qalan adını çəkdiklərimiz cani deyillər. Onları buraxsınlar. Rəşad Dağlının qanunla günahsız olduğu elan edilərsə, həbsdən çıxmasını istəyərdim".

*Qeyd edək ki, meyxanaçı Rəşad Dağlı barəsində Qaradağ Rayon Məhkəməsinin qərarı ilə 4 ay müddətinə həbs-qətimkan tədbiri seçilib. Hazırda ictimaiyyət onun azad olunması ilə bağlı böyük çağırışlar edir.*

**Sücayət Mehti**

### Elanlar

Moskva, 27 mart 1991-ci ildə Alahyarov Elçin Adilkomoviçə verilmiş Elmlər namizədi diplomu FM № 040847 itdiyi üçün etibarsız sayılır.

Mustafazadə Çingiz Bəhlul oğluna məxsus hərbi bilet itdiyi üçün etibarsız sayılır.

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC
1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330
Tirajı: 1550 Sifariş: 228



## Astronomlar Marsda "Ayı" kəşf ediblər

**NASA-nın "Mars Reconnaissance Orbiter" aparatı Qırmızı Planetdəki qaya üzərində ay siluetinin oxşar şəklini çəkib.**

Pareidoliya, insanların tanış obyektləri təsadüfi şəkildə görmə meylinə verilən addır. Bu dəfə bu qavrayış halı Yerdən uzaqda, Marsda bir qayada göründü.

Marsın səthini skan edən "Mars Reconnaissance Orbiter" peyki dekabrın 12-də planetin səthində ayının sifət cizgilərinə tam uyğun gələn qaya əmələ gəlməsini aşkar edib. Qırmızı Planetdə maraqlı formasiyanın aşkarlanması ilk dəfə deyil. Gülən insan üzləri, fillər və quşlar kimi oxşar quruluşlar daha əvvəl Marsdan çəkilmiş görüntülərdə aşkar edilmişdi.

Turan

## Gənc qadının fəlakətli sonu

Onun cəsədi 4 il sonra mumiya kimi tapılıb



**İngiltərədə vəfat edən və 4 il sonra cəsədi tapılan şizofreniya xəstəsinin hekayəsi ölkəni ayağa qaldırıb. Hadisənin təfərrüatları və qadının son qeydi ürək ağrıdıcıdır.**

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, İngiltərənin kiçik bir şəhəri olan Uokinqdə dəhşətli hadisə baş verib. Laura Vinham adlı qadının başına gələnlər dünya gündəminə bomba kimi düşüb. Şizofreniya xəstəsi olduğu iddia edilən gənc qadın öz mənzilində ölü tapılıb. 4 il əvvəl öldüyü müəyyən edilən qadının mumiya olduğu bildirilib. Qadınla bağlı ortaya çıxan təfərrüatlar həm qorxuludur, həm də ürək ağrıdır. Evə daxil olan qruplar Lauranın ölməzdən əvvəl təqvimdə yazdığı qeydi görüb şoka düşüblər. Kömək istəyirmiş kimi görünən, lakin heç kimdən dəstək ala bilməyən Laura təqvimə bu sözləri yazıb: "Köməyə ehtiyacım var". İngilis mətbuatında əksini tapan xəbərdə qadının ölümünün bu qədər gec başa düşülməsinin səbəbi kimi hesablarının ödənilməsi göstərilib. Bildirilib ki, Laura mənzil yardımı ilə hesablarının ödənilməsi zamanı heç bir problem olmadığı üçün diqqət çəkməyib.

Səlahiyyətlilər Lauranın tanınmayan bədənini dişlərindən alınan DNT nümunəsi ilə uyğunlaşdırıblar. Gənc qadının yeniyetməlik illərindən psixi sağlamlıq problemlərinin olduğu da fayla salınıb.

Turan







# Süni zəka insanlığın sonunu gətirəcək

## Oksford Universiteti həyəcan təbili çaldı

**Böyük Britaniya Parlamentinin deputatları süni zəkanın bir gün hər kəsi öldürə biləcəyi və bəşəriyyətin bunun qarşısını almaq gücündə olmayacağından narahatlıqlarını ifadə edib. Oksford Universitetinin alimləri 2000-ci yüzilliyin sonlarına doğru süni zəkanın insanlardan daha ağıllı şəkil alacağını və dünya dövlətlərinin bu texnoloji silahlara sahib olmaq üçün artıq indidən bir-biriylə yarışa girdiyini söyləyib.**

"NTV.com.tr" xəbər verir ki, Oksford alimləri süni zəkanın bəşəriyyətə böyük ehtimalla bir zamanlar insanların nəsli tükənmiş quş növü dodonun başına gətirdikləri qədər təhdid yaradacağı fikrindədir. İngiltərə Elm və Texnoloji Seçim Komitəsinə müraciət edən alimlər süni zəkanın insan zəkasını üstələyəcək vəziyyətə çatmasına çox qısa bir məsafə qaldığını və bunun növbəti yüz ilin sonunda baş verə biləcəyi xəbərdarlığı edib. Professor Maykl Osborn böyük dövlətlər və texnoloji şirkətlər arasında "həqiqi silahlanma yarışı" başladığını, texnoloji şirkətlərin "bütün insanları yoxetmə" ilə sonlanacaq nəzarətdən çıxmış sistemlər yaratmasını dayandırmaq üçün qlobal miqyasda çalışmalara başlanılmasını tövsiyə edib. Alimlər bu fikirdədir ki, süni zəkanın hansı məqsədlərlə inkişaf etdirildiyi, ondan hansı sahələrdə istifadə edildiyinə dair dövlətlər hesabat verməlidir. Çünki süni zəkanın inkişafında bir həddə görünmür. Süni zəka insanları digər canlılardan fərqləndirən xüsusiyyətləri yerinə yetirir, insanları hər sahədə əvəz etməyə başlayıb. Süni zəka bunu bacarırsa, başqa canlılar, ya da cansızlar üçün edə bildiklərini insanlara qarşı da edə bilər. Süni zəka bəşəriyyət üçün təhlükə yaratmaqdadır. Alimlər bir zamanlar mövcud olmuş dodo quş növünün necə yox olduğuna diqqət çəkib. Bu hadisə Mauritius adasında baş verib. Uçmaq qabiliyyəti olmayan quş növü insanlar tərəfindən ovlana biləcək quşlar və bəzi başqa canlı növləri yerləşdirilib. Dodo quşu bu canlıları tanımadığından onlarla necə davranacağını da bilməyib və bələliklə, digər heyvanlar tərəfindən ovlanmaya məruz qalıb, yumurtaları da başqa canlılara yem olub, nəticədə nəsli kəsilib. Oksford alimləri bəşəriyyətin də indi üstünlük verilən süni zəka ilə sonrakı mümkün mübarizəsində eyni aqibətlə üzləşə biləcəyindən narahatdır.

Məlahət Rzayeva

## Dünyanın ən yaşlı qadını İspaniyalı seçildi



**1907-ci ildə doğulmuş Mariya Branyas Morera Ginnesin Rekordlar kitabına dünyanın ən yaşlı sakini kimi daxil edilib.**

**"Medicina" xəbər verir ki, 118 yaşlı fransalı Andrenin yanvarın 17-də ölümündən sonra bu yer boş idi. Mariya Branyans 2 dünya müharibəsi, 2 pandemiya görüb. Hazırda İspaniyada, Resid?ncia Santa Mar?a del Tura ahıllar evində yaşayır. O, 2020-ci ildə kovidə yoluxaraq sağalmış və koronavirusdan sağalan ən uzunömürlü kimi də tibb tarixinə düşmüşdür. Onun 3 övladı, 11 nəvə, 13 nəticəsi var. Hazırda özünü yaxşı hiss edir.**

## Zənginlər üçün yeni paytaxt tikiləcək



**Zimbabve hakimiyyəti ölkənin yeni paytaxtı olacaq futuristik "Cyber City" şəhərinin tikintisinə sərmayə qoymağa hazır olan investorları axtarır.**

**Planlaşdırıldığı kimi, şəhər indiki paytaxt Hararedən 18 kilometr aralıda salınacaq. Burada milli parlamentin, prezident sarayının və ölkənin mərkəzi bankının yeni binaları, o cümlədən Ali Məhkəmənin binası, birja və digər obyektlər tikiləcək. Layihəyə göydələnlər, ticarət mərkəzləri və yalnız imkanlı vətəndaşların ala biləcəyi 250-yə yaxın dəbdəbəli villalar daxildir.**

**Oxu.az xəbər verir ki, Zimbabvedə hər gün 19 saat elektrik enerjisi kəsildiyi üçün şəhərin öz günəş elektrik stansiyasının tikintisi də planlaşdırılır. Layihəyə 500 milyon dollar sərmayə qoyan milyarder investor Şədci ül Mülkün sözlərinə görə, artıq üç villa satılıb. Yeni paytaxt Dubaya bənzəyəcək və bütövlükdə futuristik şəhərin tikintisi 60 milyard dollara başa gələcək.**

***Qeyd edək ki, Hararendə praktiki olaraq yüksək keyfiyyətli yollar yoxdur, zibillər nadir hallarda təmizlənir, şəhərətrafı ərazilərdə su təchizatı yoxdur və elektrik enerjisi demək olar ki, daim kəsilir.***

## İnsanlar boğulur

Pakistanda müəmmalı xəstəlik yayılıb



**Pakistanın Karaçi şəhərində son 2 həftədə tənəffüs çatışmazlığına səbəb olan müəmmalı xəstəlikdən 10-u uşaq olmaqla ən azı 18 nəfər ölüb.**

**"Medicina" xəbər verir ki, xəstələrdə görülən tənəffüs çatışmazlığına həmin şəhərdə havada olan neft məhsulları, qatqı yanacaq və dəmir fabriklərindən çıxan "zəhərli qazların" səbəb olduğunu düşünürlər.**

**Bu səbəbdən 3 fabrik bağlanıb, 4 nəfər saxlanılıb. Sözügedən qaz və digər kimyəvi maddələr araşdırılır.**



# Qocalmanın ilk əlamətləri

## Yaşlandıqca ağrıların artması məhz kollagen istehsalının tükənməsi ilə əlaqədardır

**"Kollagen - birləşdirici toxumanın əsasını təşkil edən bir zülaldır.**

**Oynaqların, sümüklərin, vətərlərin, saçların, dərinin, dırnaqların, dişlərin əsas komponentlərindən biridir. Kollagen damarların, arteriyaların və kapilyarların divarlarını əmələ gətirir". Bu sözləri sağlam qida üzrə tanınmış mütəxəssis, bioloq Leyla Məmmədzadə deyib.**

L.Məmmədzadənin sözlərinə görə, bir çox ekspertlər kollagenin əsas funksiyasını yapışqanla müqayisə edirlər: "Kollagen molekulları uzun nazik zülal lifləri - fibrillər əmələ gətirir. O, hüceyrələri bir yerdə tutmağa, bədənimizi bir "bütün" olmağa və toxumaların uzanmasına tab gətirməsinə xidmət edir.

Yaşlandıqca kollagenin orqanizm tərəfindən istehsalı tükənməyə doğru gedir. Fibrillər daha sürətli parçalanmağa başlayır, kollagen sintezi isə təbii olaraq yavaşlayır. Bu, qocalmanın ilk əlamətlərinin təzahürünə gətirib çıxarır. Dəri naziklaşir və elastikliyini itirir, qırışlar əmələ gəlir, sümüklər daha kövrək olur, oynaqlar daha az hərəkət edir.

Kollagen lifləri dərimizin "skeleti" hesab edilir, belə ki, dərinin elastikliyi, möhkəmliyi və gücü kollagendən asılıdır.

Qığırdaq toxuması məhv olmaqdan qoruyur. Yaşlandıqca ağrıların artması məhz kollagen istehsalının tükənməsi ilə əlaqədardır.

Kollagen həmçinin sümüklərin gücünü artırır, onları məhv olmaqdan qoruyur və osteoporoz riskini azaldır. Demək ki, iş ancaq calsium ilə kifayətlənmir. Qanı ürəkdən orqanlara daşıyan damarların divarlarını əmələ gətirdiyindən, kollagen çatışmayanda onlar kövrək olur və zədələnirlər".

Mütəxəssisin sözlərinə görə, orqanizm tərəfindən istehsal olunan təbii kollagen endogen adlanır. Gənc yaşlarda, fibrillərin məhv edilmiş sahələrini vaxtında doldurmaq üçün kifayət qədər sayda yeni molekul sintez edirik: "Yaşla, onlar daha tez deformasiyaya və parçalanmağa başlayır, kollagen istehsalı isə yavaşlayır. Bu zülalın azalması artıq 20 yaşından başlayır və 25-30 yaşdan sonra onun məhv edilməsi prosesləri sintez proseslərindən üstün olur. Demək ki, kollageni 25 yaşdan sonra qəbul etmək daha məsləhətdir. Ancaq böyrək çatışmazlığından və qaraciyər xəstəliyindən əziyyət çəkən insanlar kollageni ehtiyatla qəbul etməlidir. Çünki zülalın çox olması bu orqanlara yükü əhəmiyyətli dərəcədə artırır. Xüsusən də hamilə və laktasiyada olan qadınlar kollagen əlavələrindən yalnız həkimin ciddi nəzarəti altında istifadə etməlidirlər".

L.Məmmədzadə deyib ki, "gənclik zülalı" ilə zəngin hesab edilən sümük suyu, yumurta ağı, jelatin, toyuq, mal əti, balıq və dəniz məhsullarını gündəlik qida rasionumuza daxil etməliyik. Düzgün qidalanmanın köməyi ilə bədəndə lazım olan kollagenin səviyyəsini saxlaya bilərik: "Balıqlardan alınan dəniz kollagenə üstünlük vermək daha yaxşıdır. Onun strukturu təbii insan zülalına ən yaxın olduğu üçün qan dövranına daha sürətli nüfuz edir. Kollagen qəbulu zamanı qidalanmanızda meyvə və tərəvəzlərin qəbulunu artırmaq lazımdır. Onların tərkibində kollagen olmasa da, zülalın istehsalı üçün lazım olan amin turşuları və vitaminlər var. Sitrus meyvələri, qara qarağat, çiyələk, yerkökü, brokoli, qırmızı bibər, kahı, qoz-fındıq və paxlalılara xüsusi önəm verilməlidir.

Məqsəd xaricdən qəbul edilən kollagenlə daxildə istehsal olunan kollagenin ömrünü uzatmaq və ehtiyatını artırmaqdır".

Şəymən

## 32 il kinderlərdən çıxan fiqurları topladı

Onun kolleksiyasında indi 15 min oyuncaq fiqur var





**Uşaqların təkidlə analarından "kinder sürpriz" istədiyi zamanlar artıq keçmişdə qalıb. Uşaqlar üçün kinderin özündən (şokoladdan) daha çox, içindən nə çıxacağı maraqlı idi.**

mO zamanlar şokoladlı yumurtadan çıxan kiçicik oyuncaqları, fiqurları toplayanlar da az deyildi. Serbiyalı Radivoj Dado Juhik isə kinderlərdən çıxan fiqurları tam 32 il ərzində toplayıb və hazırda onun kolleksiyasında 15 min oyuncaq fiqur var. Kolleksiyada ən müasir film və cizgi filmləri qəhrəmanları ilə yanaşı, 1980-ci illərin populyar uşaq qəhrəmanlarının fiqurları da toplanıb. Təkcə uşaqların deyil, böyüklərin də maarqla izlədiyi film qəhrəmanları - Donald Duck, Asteriks, Hörümçək adam (Spiderman), "Buz dövrü" qəhrəmanları, çirkin ördək balası, Maşa və Ayı seriyasından çox sayda fiqurlar var. "Şərq" "NTV,com.tr-yə istinadən bildirir ki, serb kolleksiyaçı fiqurları 1991-ci ildən toplamağa başlayıb. Onu bu işə sövq edənsə "Asteriks" filminin nümayişi olub. Filmdəki xarakterləri çox bəyənən Juhik "Asteriks" seriyasından fiqurlar toplayıb. Sürpriz yumurtaların içindən çıxan başqa fiqurları da toplayıb və nəticədə böyük bir kolleksiya əmələ gəlib. Əvvəlcə fiqurları servantda görünən yerdə saxlayan serb, fiqurlar çoxaldıqca onlara daha geniş vitrin düzəldib. Kolleksiyaçı deyib ki, bütün fiqurlar vitrinə də sığmır, qutularda qalanlar da var. Juhik Yaponiya, Çin, Meksika və Avropa ölkələrində istehsal edilmiş oyuncaqlara sahibdir.

Məlahət

## Depressiyanı artırır

Şirniyyat əvəzinə alma, meyvə yeyin



**Dietoloq Qinzburq şəkər və qəndin depressiyaya səbəb olduğunu açıqlayıb.**

"Medicina" xəbər verir ki, beyində gedən neyroiltihab depressiv halların və təşviş pozuntusunun səbəblərindən birincisidir.

Dietoloq Mizail Qinzburq bu iltihabın səbəbkarı kimi qidalanmanı irəli sürür. Neyroiltihab şəkər, şəkər tərkibli qidalar, yüksək qlikemik indeksli qidalar - düyü, ağ çörək, kartof və un məmulatları nəticəsində yaranır.

Dietoloq həmçinin transyağlara ehtiyatla yanaşmağı tövsiyə edib, çünki bu yağlar baş beyində damarları tıxayır, qan dövranını pozur, belə halda beyindən qaynaqlanan depressiv hallar baş verir. Həkim bununla yanaşı turş süd, qatıq məhsulları, müsli, yarmaların ən yaxşı qida olduğunu bildirib. Şirniyyat əvəzinə alma, meyvə yeyin. Eləcə də tərəvəz salatlarını tam taxıldan qara çörəklə gündə 2 dəfə yeyə bilərsiz.

Depressiyada olanların əhvalını qaldırmaq üçün şirniyyat yeməsi səhv fikirdir.88